RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 239 (8832) CÜMƏ AXŞAMI 4 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin Zəfər siyasətinin quruculuq mərhələsi



**Xalqımız tarixi hadisənin - Vətən müharibəsində qazanılan Zəfərin birinci ildönümü ərəfəsindədir. Müasir tariximizin ən böyük hərbi-siyasi hadisəsi olan bu qələbə dövlətimizin qürurunun və gücünün ifadəsinə çevrilərək, bütün dünyaya xalqımızın öz haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi. Bu Zəfər Prezident İlham Əliyevin yürütdüyü siyasətin bəhrəsi oldu, onun təntənəsinə çevrildi.**

## Azərbaycan öz haqqını təmin etdi

**Prezident İlham Əliyevin yürütdüyü siyasət hələ illər öncədən Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib. Bu siyasət Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının təntənəsini təmin edib, Azərbaycanı qlobal enerji təhlükəsizliyi müzakirələrində söz sahibinə çevirib, ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqelərini daha da möhkəmləndirib. İlham Əliyev bütün sahələrdə respublikamızın inkişafına nail olmaqla ona Cənubi Qafqazın lider dövləti statusunu qazandırıb. Təsadüfi deyil ki, uzun illərdir ki, regionda Azərbaycanın iştirakı olmadan hər hansı layihənin həyata keçirilməsi mümkünsüzdür və bundan sonra da belə olacaqdır.**

**Azərbaycanın yeganə ağrılı problemi torpaqlarının işğal altında qalması idi. Bu gün ötən illərin reallıqlarını təhlil edəndə görürük ki, ölkəmizin ərazi bütövlüyünün təmin olunması İlham Əliyevin siyasi kursunun prioritetini təşkil edib. Dövlət başçısı bütün sahələrdə həyata keçirdiyi fəaliyyətlə həm də torpaqlarımızın işğaldan azad olunmasını əsas hədəf kimi müəyyən edib, hər bir istiqamətdə ərazi bütövlüyümüzün təmin olunması üçün çalışıb. Azərbaycanın həm inkişafı, həm beynəlxalq miqyasda görülən işlər, həm də enerji siyasəti, hücum diplomatiyası və digər uğurlarımız nəticə etibarilə ən böyük tarixi missiyamız olan torpaqlarımızın işğaldan olunmasına tarixi imkan və zəmin formalaşdırıb.**

*Ardı 5-ci səh.*

# Şefik CAFEROVİÇ: "Siz beynəlxalq hüququn qaydaları çərçivəsində torpaqlarınızın azad edilməsi uğrunda müharibə aparmısınız"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçlə görüşüb.



AZƏRTAC xəbər verir ki, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçi salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, cənab Prezident. Sizi yenidən görməyə çox şadam. Çox şadam ki, VIII Qlobal Bakı Forumunda iştirak edirsiniz. Biz dəfələrlə görüşmüşük. Həmçinin bu yaxınlarda telefonla tərəfdaşlığımız, əməkdaşlığımız və millətlərimiz arasında sıx dostluq əlaqələri barədə danışmışıq. Ölkələrimiz hər zaman bütün məsələlərdə bir-birini dəstəkləyib. Bu qarşılıqlı dəstək tərəfdaşlığımızı çox xüsusi edir. Mən Azərbaycanın ötən il torpaqlarının azad edilməsi uğrunda apardığı müharibə zamanı dəstəyinizə görə şəxsən Sizə çox minnətdaram. Ölkələrimiz arasında çoxlu oxşarlıqlar var və xalqlarımız bir-birini daha yaxşı tanıyır. Demək olar 50 ildir ki, Bakı və Sarayevo qardaşlaşmış şəhərlərdir. Sözsüz, bu elə bir vaxt idi ki, ölkələrimiz müstəqil deyildilər. Lakin biz müstəqillik illərində bu sıx əməkdaşlığı davam etdiririk. Əminəm ki, Sizin səfəriniz siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığımızla bağlı müxtəlif məsələləri müzakirə etmək üçün yaxşı fürsət olacaq. Bir daha xoş gəlmisiniz.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü **Şefik CAFEROVİÇ** dedi:

- Cənab Prezident, dəvətinizə və VIII Qlobal Bakı Forumunda iştirak etmək və burada çıxış etmək imkanına görə təşəkkür edirəm. Ölkələrimiz arasında dostluq əlaqələrinin tarixi var və ümidvaram ki, gələcəkdə biz buna əsaslanaraq dostluq əlaqələrini davam etdirəcəyik. Mən telefon danışığımız zamanı artıq Sizi təbrik etmişəm, lakin indi şəxsən Sizi Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə bir daha təbrik etmək istərdim. Siz beynəlxalq hüququn qaydaları çərçivəsində torpaqlarınızın azad edilməsi uğrunda müharibə aparmısınız və hazırda öz ərazinizin bir hissəsini yenidən qurmağa çalışırsınız. Mən hətta müharibə zamanı bu barədə dəfələrlə danışmışam. Ümidvaram ki, biz siyasi, iqtisadi, mədəniyyət məsələlərində əməkdaşlığımızı davam etdirəcəyik.

# VIII Qlobal Bakı Forumu çox aktual mövzuya həsr olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri mərkəzin fəaliyyətinə göstərdiyi diqqətə və dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. 44 günlük Vətən müharibəsi zamanı mərkəzin İdarə Heyətinin üzvlərinin Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyən çoxsaylı bəyanatlarla çıxış etdikləri qeyd olundu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq təsisat kimi dünyada rolunun və nüfuzunun artması xüsusi vurğulandı.

Söhbət zamanı noyabrın 4-dən 6-dək "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun çox aktual mövzuya həsr olunduğu qeyd edildi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri pandemiyaya baxmayaraq, mərkəzin aktiv fəaliyyət göstərməkdə davam etdiyini, çoxsaylı konfranslar keçirdiyini və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirdiyini bildirdilər. Forum çərçivəsində mərkəzin İdarə Heyətinin üzvlərinin və digər iştirakçıların Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər edəcəkləri vurğulandı.

# "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 21, maddə 590; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddələr 282, 293; 2001, № 12, maddə 731; 2003, № 10, maddə 539; 2004, № 7, maddə 507; 2007, № 5, maddə 401, № 6, maddə 561; 2008, № 7, maddə 602; 2016, № 11, maddə 1764; 2019, № 5, maddə 797; 2020, № 7, maddə 826; 2021, № 6 (I kitab), maddə 536; Azərbaycan Respublikasının 2021-ci il 11 iyun tarixli 345-VIQD nömrəli və 22 iyun tarixli 350-VIQD nömrəli qanunları) 3-cü maddəsinin ikinci hissəsinin dördüncü abzası ləğv edilsin.

**Maddə 2.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382, № 12, maddə 1908; 2020, № 5, maddə 507, № 6, maddə 670, № 7, maddə 827, № 11, maddə 1330, № 12 (I kitab), maddə 1425; Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 351-VIQD nömrəli Qanunu) 5-ci maddəsinin altıncı hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# Dünyada koronavirus infeksiyasına yoluxanların sayı artıb

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dünyada koronavirusdan ölənlərin sayının 5 milyonu ötdüyü barədə məlumat verib.

Təşkilatın yeni növ koronavirusla bağlı təəssüf doğuran məlumatları bununla məhdudlaşmır. Belə ki, ÜST-dən bildirildiyinə görə, ötən həftə dünyada 3 milyon nəfər koronavirus infeksiyasına yoluxub, 50 mindən çox insan isə həyatını itirib. Nəticədə yeddi gün ərzində COVID-19 infeksiyasına yoluxma halları 3 faiz, ölüm halları isə 8 faiz artıb.

ÜST-ün məlumatına görə, keçən həftə ərzində koronavirusa ən çox yoluxma Birləşmiş Ştatlarda qeydə alınıb. COVID-19-a yoluxma sayına görə ABŞ-dan sonrakı yerləri ardıcıl olaraq Böyük Britaniya, Rusiya, Türkiyə və Ukrayna tutub.

Məlumatda o da bildirilib ki, yoluxma hallarının demək olar ki, 60 faizi Avropada qeydə alınıb. Ötən həftə ərzində Avropada koronavirusa yoluxanların sayı 6 faiz çoxalıb. Amerika ölkələrində bu göstərici 3 faiz, Qərbi Sakit okean regionunda isə 2 faiz təşkil edib. Şərqi Aralıq dənizi regionunda 12 faiz, Cənub-Şərqi Asiya regionunda 9 faiz, Afrikada isə 9 faiz azalma müşahidə olunub.

Koronavirus səbəbindən ölüm hallarında ən böyük artım isə Cənub-Şərqi Asiyada baş verib - 50 faiz. Avropada bu göstərici 12 faiz, Qərbi Sakit okean regionunda 10 faiz olub. ÜST tərəfindən yoluxanlar arasında "Delta" ştamının dominantlıq etdiyi açıqlanıb. Belə ki, son 60 gün ərzində analizlərin 99,5 faizində bu ştam aşkarlanıb.

## Koronavirus yeni adlarla yayılmaqda davam edir

Təhlükəli infeksiya yeni adlarla da yayılmaqda, bütün bəşəriyyət üçün problemlər yaratmaqda davam edir. Bunlardan biri də "AY.4.2" adı ilə gündəmə gəlib.

*Ardı 8-ci səh.*

# Prezident İlham Əliyev Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Xorvatiya Respublikasının sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin beynəlxalq əməkdaşlığa töhfə verəcəyi vurğulandı.

Görüşdə Prezident İlham Əliyevin Xorvatiyaya səfəri və həmin səfər zamanı Kolinda Qrabar-Kitaroviçlə görüşü məmnunluqla xatırlandı, bu səfərin əlaqələrimizin genişləndirilməsində rolu qeyd edildi.

# Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun bir çox mühüm məsələlərin müzakirəsi üçün qlobal platforma olduğu bildirildi, pandemiyaya baxmayaraq, tədbirdə iştirak etmək üçün Bakıya çox sayda qonağın gəlməsinin bu foruma və ölkəmizə olan marağın göstəricisi olduğu vurğulandı.

Görüşdə Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin ölkəmizin müvafiq qurumları ilə səmərəli əməkdaşlığından məmnunluq ifadə olundu.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Böyük fəxarət hissi ilə 8 Noyabr - Zəfər Günü münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırmaqdan çox məmnunuq.

Bu qələbə doğma Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini özünə qaytarmışdır. Əminik ki, ölkənin inkişafında, çiçəklənməsində və regionun bərpa edilməsində onun böyük töhfələri olacaqdır.

Misir-Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdəki əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səylər göstərir.

Zati-aliləri, Sizin müdrik və qətiyyətli rəhbərliyiniz ilə qardaş Azərbaycan Respublikasının daim müstəqillik və əmin-amanlıq şəraitində yaşamasını arzu edirik.

Ən səmimi arzularımızı və salamlarımızı qəbul edin.

Hörmətlə,

***Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyəti və təsisçiləri:***

***Prof. Dr. Əli Cümə** - Misir Ərəb Respublikası Parlamentinin Dini İşlər və Vəqflər Komitəsinin sədri,*

***Prof. Dr. Usamə əl-Əbd** - Komitə sədrinin müavini,*

***Əl-Seyyid Mahmud əl-Şərif** - Ərəb və İslam Dünyasında Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir Parlamenti sədrinin sabiq birinci müavini,*

***Dr. İmam Bağdadi** - Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin baş direktoru,*

***Müşavir Tövhid Məhəmməd** - vəkil,*

***Səfir Yusif əl-Şərqavi** - Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı keçmiş səfiri,*

***Prof. Adil Dərviş** - Misirin Helvan Universitetinin professoru,*

***Dr. Usamə Əbdürrəhman** - Universitetin professoru,*

***Dr. Mona Zidan** - Universitetin professoru,*

***General Midhət Camal** - Misir əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin rəhbəri,*

***Əhməd Əbdu Tarabek** - Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist,*

***Mustafa Hicazi** - "Orange" şirkətinin baş direktoru, mühəndis,*

***Dr. Seymur Nəsirov** - Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin sədri, Misirdəki Azərbaycan diasporunun sədri.*

# Prezident İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiyanın elan olunması təşəbbüsü ilə çıxış edib

## Milli Məclisə təqdim olunan amnistiya aktının ümumilikdə 16 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir



8 Noyabr - Zəfər Gününün Azərbaycan xalqı üçün müstəsna əhəmiyyəti nəzərə alınaraq və humanizm ənənələrini davam etdirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən amnistiya elan edilməsi təşəbbüsü irəli sürülüb.

AZƏRTAC xəbər verir ki, amnistiyanın tətbiq ediləcəyi şəxslərin sayına və əhatə etdiyi cinayət məsuliyyətindən və cəzadan azadetmə institutlarının dairəsinə görə bu aktın ən böyük amnistiya olacağı ehtimal edilir.

Vətən müharibəsində qazanılmış tarixi Zəfərin birinci ildönümü ilə bağlı bu Qələbənin memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilən amnistiya aktının ümumilikdə 16 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 3 mindən çox şəxsin azad ediləcəyi, habelə 3 minədək şəxsin cəzalarının çəkilməmiş hissəsinin azaldılacağı proqnozlaşdırılır.

Amnistiya aktının layihəsinə əsasən, Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin, habelə döyüş əməliyyatlarında həlak olmuş şəxslərin yaxın qohumlarının, Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslərin, Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı hərbi təxribat nəticəsində əlil və ya həlak olmuş şəxslərin yaxın qohumlarının, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə görə, ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər, cəzanın çəkilməmiş hissəsi 6 aydan az olan az ağır və ya ilk dəfə ağır cinayət törətmiş şəxslər, cəzanın sonuna 1 ildən az müddət qalmış məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad ediləcəklər.

Həmçinin cərimə, ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama və digər azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslərin cəzadan azad edilməsi nəzərdə tutulur.

Amnistiya aktı əsasında əsas və əlavə cəzanı çəkməkdən azad edilən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin üzərindən məhkumluğun götürülməsi gözlənilir.

# "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 382-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 avqust tarixli 188 nömrəli, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 614 nömrəli, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 336-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 18 noyabr tarixli 1115 nömrəli və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 382-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498; 2001, № 7, maddə 459; 2002, № 8, maddə 487; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459, № 6, maddə 611; 2008, № 3, maddə 170; 2017, № 5, maddə 767; 2018, № 8, maddə 1691; 2020, № 7, maddələr 861, 877) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci və 2.10-cu bəndlərdə "yeddinci" sözü "altıncı" sözü ilə əvəz edilsin;

1.2. 2.4-cü bəndə "Qanunun" sözündən sonra "1-ci maddəsinin on doqquzuncu abzasında," sözləri, "ikinci halda" sözlərindən sonra ", 6-cı maddəsinin ikinci hissəsində" sözləri əlavə edilsin və həmin bənddə "yeddinci" sözü "altıncı" sözü ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 614 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 760; 2003, № 9, maddə 479; 2005, № 1, maddə 15; 2011, № 3, maddə 180; 2016, № 2 (II kitab), maddə 227; 2020, № 8, maddə 1037) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzasda "beşinci və altıncı abzaslarında" sözləri "dördüncü abzasında" sözləri ilə əvəz edilsin və həmin abzasdan ", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin beşinci hissəsində" sözləri çıxarılsın;

2.2. üçüncü abzasda "yeddinci" sözü "altıncı" sözü ilə əvəz edilsin və həmin abzasdan ", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin ikinci hissəsində" və "; "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin sonuncu abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın" sözləri çıxarılsın.

3. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 336-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 1115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1822) 3.1-ci və 3.2-ci bəndlərində "yeddinci" sözü "beşinci" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 sentyabr tarixli 1443 və 1447 nömrəli fərmanları) ilə təsdiq edilmiş DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nın 5.2.2-ci yarımbəndinin 11-ci, 11.6-cı və 11.7-ci abzasları ləğv edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 382-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 noyabr 2021-ci il*

# *Antonio ANASTASİA:* "Braziliya hər zaman BMT qətnamələrinin yerinə yetirilməsinin vacibliyi mövqeyindən çıxış edib"

Noyabrın 3-də xarici işlər naziri Ceyhun Bayramov Braziliya Federativ Respublikasının Milli Konqresinin Senatının üzvü, Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri senator Antonio Anastasia ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Braziliya senatorunu səmimiyyətlə salamlayıb, Azərbaycanın Braziliya ilə münasibətlərinin inkişafına əhəmiyyət verdiyini qeyd edib. Parlament müstəvisində münasibətlərin inkişafının bilavasitə insanlar arasında əlaqələrin qurulmasına müsbət təsir göstərdiyi qeyd edilib. Nazir senatorun səfərinin və səfər çərçivəsində baş tutmuş çoxsaylı görüşlərin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. O, ölkələrimiz arasında mövcud olan siyasi dialoqdan məmnunluq ifadə edərək, iqtisadi sahədə əməkdaşlıq perspektivlərinin nəzərdən keçirilməsi, habelə humanitar, mədəniyyət, təhsil və digər sahələrdə əlaqələrin genişləndirilməsində maraqlı olduğumuzu bildirib.

Nazir həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi, onun doğurduğu ağır fəsadlar, 44 günlük müharibədən sonra bölgədə mövcud olan cari vəziyyət, postmünaqişə mərhələsində yaranmış yeni reallıqlar, azad olunmuş ərazilərin bərpa və quruculuğu işləri barədə qarşı tərəfə məlumat verib. O, üçtərəfli bəyanatların icrası ilə bağlı, o cümlədən iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində Azərbaycan tərəfindən görülən tədbirlər haqqında danışıb. Azərbaycanın bölgədə uzunmüddətli sülh və əmin-amanlığın təmin olunması mövqeyindən çıxış etdiyi vurğulanıb.

Senator Antonio Anastasia Azərbaycana səfəri və bu çərçivədə baş tutmuş görüşlərlə bağlı məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında coğrafi məsafənin olmasına baxmayaraq, xalqlarımızın bir-birinə yaxın olduğunu vurğulayan senator bu amilin ikitərəfli münasibətlərin inkişafı üçün böyük önəm kəsb etdiyini söyləyib. Bölgədə cərəyan edən son hadisələrdən xəbərdar olduğunu qeyd edən Antonio Anastasia Braziliyanın hər zaman sülhün təmin olunması və BMT qətnamələrinin yerinə yetirilməsinin vacibliyi mövqeyindən çıxış etdiyini vurğulayıb. Səfər çərçivəsində Ağdam şəhərində olduğunu qeyd edən senator oradakı dağıntıları öz gözləri ilə gördüyünü bildirib. O, ölkəsinin bölgədə dayanıqlı sülhün təmin edilməsi və münasibətlərin normallaşması gözləntisinin olduğunu bildirib.

Görüşdə tərəflər həmçinin ikitərəfli gündəliyin bəzi məsələləri üzrə fikir mübadiləsi aparıblar.

# Daxili işlər naziri növbəti sıra baxışı keçirib

Gənclər siyasəti dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Yüksək mənəviyyata, iş keyfiyyətlərinə malik, bacarıqlı, fiziki cəhətdən sağlam gənclərin digər sahələrdə olduğu kimi, daxili işlər orqanlarında da xidmətə qəbulu və irəli çəkilmələri Daxili İşlər Nazirliyinin (DİN) rəhbərliyi tərəfindən hər zaman diqqətdə saxlanılır.



DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 3-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun iştiraki ilə keçirilən respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışı da bunun bariz nümunəsidir.

Şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşən sıra baxışında əvvəlcədən verilmiş elana uyğun olaraq, nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 237 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onların 75 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin iştirakçısıdır.

General-polkovnik V.Eyvazov xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini daim uca tutmalarını, müasir informasiya texnologiyalarının sirlərinə yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

# Estoniya parlamentinin nümayəndələri Ağdamda ermənilərin törətdiyi vəhşiliklərlə tanış olublar








Ölkəmizdə səfərdə olan Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Sven Sesterin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 3-də Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə gəlib. Səfərin məqsədi Ermənistan silahlı qüvvələrinin Ağdam şəhərində törətdiyi vəhşiliklər, cinayət izləri ilə tanışlıq olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Ağdam rayonu üzrə xüsusi nümayəndəliyinin əməkdaşları qonaqlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi barədə ətraflı məlumat veriblər. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdam indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlardan ibarətdir.

Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, o cümlədən İmarət kompleksinə, Ağdam Cümə məscidinə, Dram teatrının və Çörək muzeyinin binalarının qalıqlarına və yerlə yeksan edilmiş Şəhidlər xiyabanına baxış keçirilib.

Ağdam şəhərinin Baş planı ilə tanış olan qonaqlara həyata keçiriləcək quruculuq işləri barədə də ətraflı məlumat verilib.

Qonaqları Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əhmədova, Azərbaycanın Estoniyadakı səfiri Anar Məhərrəmov, Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin məsləhətçisi Tamerlan Həsənzadə müşayiət ediblər.

## Əli HÜSEYNLİ: "Biz haqq işimizi dəstəkləyənləri unutmuruq"

"Azərbaycan-Estoniya münasibətləri Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ən yüksək səviyyədədir. Həm Vətən müharibəsindən əvvəl, həm də Vətən müharibəsinin gedişində biz Estoniyanın Azərbaycanın haqq işinin yanında olduğunu müşahidə etmişdik".

Bu sözləri Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun nümayəndələri ilə işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri zamanı AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli bildirib.

"Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Sven Sesterin rəhbərlik etdiyi nümayəndə heyətinin Zəfər günü ərəfəsində Azərbaycana, işğaldan azad edilmiş ərazilərə səfər etməsini yüksək qiymətləndiririk. Onlar erməni faşistlərinin törətdikləri cinayətlərin şahidi oldular. Biz haqq işimizi dəstəkləyənləri unutmuruq", - deyə Əli Hüseynli əlavə edib.

## Sven SESTER: "Estoniya azad olunan torpaqların bərpası üçün Azərbaycana kömək etməyə hazırdır"

"Ağdamdakı dağıntılara baxanda ağır hisslər yaşadıq. Biz Ağdamda gördüyümüz mənzərənin digər insanlara çatdırılması istiqamətində iş aparacağıq".

Bu sözləri işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri zamanı AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Sven Sester bildirib.

O, Estoniyanın hər zaman Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb. Qonaq işğaldan azad edilmiş ərazilərin yenidən qurulacağına əminliyini ifadə edib: "Bura səfər edən və hazırkı vəziyyətlə tanış olan bütün xarici siyasətçilər və diplomatlar başa düşürlər ki, hazırda bu torpaqlarda yaşamaq mümkün deyil. Burada böyük işlər görülməlidir. Qarabağı inkişaf etdirmək üçün zaman və böyük sərmayə tələb olunacaq. Estoniya azad olunan torpaqların bərpası üçün Azərbaycana kömək etməyə hazırdır".

# İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

Noyabrın 3-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili iclasın gündəliyinə 12 məsələnin daxil olduğunu deyib. O, gündəliyin ilk 8 məsələsinin birinci oxunuşda müzakirəyə çıxarıldığını və bir-biri ilə bağlı olduğunu bildirib. Bu məsələlərin Vergi Məcəlləsində dəyişikliklərin edilməsini və ondan irəli gələrək digər normativ-hüquqi aktlarda da dəyişiklikləri ehtiva etdiyini deyən Tahir Mirkişili ötən illərdə Azərbaycan vergi sistemində müşahidə olunan müsbət dinamika və irəliləyişlərdən söz açıb. Qeyd olunub ki, bu sahədə aparılan islahatlar həm vergi-vətəndaş, həm də vergi-sahibkar arasında inam və etibarın yüksəlməsinə səbəb olub. Bundan başqa, haqsız rəqabətin aradan qaldırılması, vergidən yayınmaların qarşısının alınması, eyni zamanda vergitutmanın əhatə dairəsinin artırılması üçün həm qanunvericilik səviyyəsində, həm də inzibatçılıqda görülən işlər öz effektiv nəticəsini verib. 2022-ci ildə Azərbaycan iqtisadiyyatının qarşısında duran yeni hədəflər barədə danışan Tahir Mirkişili bu gün müzakirə ediləcək vergi dəyişikliklərinin də əsasən kölgə iqtisadiyyatının səviyyəsinin daha da azaldılması, qeyri-leqal münasibətlərin aradan qaldırılması, vergi güzəştlərinin müxtəlif hədəfli istiqamətlər üzrə tətbiq olunması kimi dövrün çağırışlarına uyğun hazırlandığını bildirib.

Sonra Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli və Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş İdarəsinin rəisi Nicat İmanov Vergi və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Nağdsız hesablaşmalar haqqında", "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələrini birinci oxunuşda geniş şəkildə təqdim ediblər.

Təqdimat zamanı Vergi Məcəlləsinə təklif olunan dəyişiklikləri şərtləndirən səbəblər, onların istiqamətləri, xarakteri, maliyyə tutumu, nəzərdə tutulan sosial xarakterli güzəştlər və digər bir çox aspektlər barədə deputatlara ətraflı məlumat verilib. Qeyd olunub ki, bu dəyişikliklər kölgə iqtisadiyyatı ilə mübarizənin gücləndirilməsi, vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı hazırlanıb və əhalinin vergi yükünü azaltmaqla bərabər, büdcəyə daxilolmaların 65 milyon manat civarında artmasını hədəfləyib.

Sənədlərdə yerli əhəmiyyətli tikinti materialları üzrə bələdiyyə büdcəsinə ödənilən mədən vergisi dövlət vergilərinə aid edilib, bir sıra fəaliyyət növləri üzrə vergitutma məsələləri dəqiqləşdirilib, qeydiyyat sadələşdirilib və elektronlaşdırılıb, ölkədə nağdsız hesablaşmalarla əhatə olunan fəaliyyət sahələri daha da genişləndirilib.

Müzakirələrdə çıxış edən komitənin sədr müavini Əli Məsimli, deputatlar Ziyad Səmədzadə, Vahid Əhmədov, Vüqar Bayramov, Məşhur Məmmədov, Aydın Hüseynov, İqbal Məmmədov qanun layihələrində əhalinin vergi yükünün azaldılmasını, şəhid ailələrinə, müharibə əlillərinə güzəştləri və digər vergi güzəştlərini, ƏDV-dən azadolmaları və maya dəyərində onun payının minimallaşdırılması kimi güzəştlər blokunu təqdirlə qarşılayıblar. Həmçinin dəyişikliklərdə verginin fiskal funksiyası ilə yanaşı, stimullaşdırıcı, tənzimləyici funksiyalarının da nəzərə alınmasını müsbət qiymətləndiriblər. Deputatlar müalicə və cərrahi xərclərə edilən yardımların vergidən azadolma məbləğləri, səyyar vergi yoxlamalarının müddətləri, sanksiyaların diferensiallaşdırılması kimi məsələlərlə bağlı fikirlərini bildirib, rəylərini səsləndiriblər.

Komitə müzakirələrdən sonra gündəliyin ilk 8 məsələsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edib.

Sonra komitə "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda baxıb. Sənəd vergi orqanlarında xidmət edən və işləyən şəxslərin icbari şəxsi sığortası ilə bağlı məsələləri dəqiqləşdirir. Bu qanun layihəsi də birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Gündəliyin son üç məsələsini - üçüncü oxunuşda olan "Dövlət rüsumu haqqında" qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında məsələləri, həmçinin bir oxunuşda qəbul ediləcək "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsini də komitə nəzərdən keçirib. Hər üç qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

İclasda komitə üzvləri Məzahir Əfəndiyev, İmamverdi İsmayılov, Anar Məmmədov, Ağalar Vəliyev, Dövlət Vergi Xidmətinin İqtisadi Təhlil və Uçota Nəzarət Baş İdarəsinin rəisi Natiq Şirinov, Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin müdiri Fikrət Şirinov və digər rəsmi şəxslər iştirak ediblər.

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

Noyabrın 3-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclasında Azərbaycan Prezidenti tərəfindən parlamentə təqdim olunmuş "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.



AZƏRTAC xəbər verir ki, komitə sədri Ziyafət Əsgərov qarşıdan gələn Zəfər günü münasibətilə iclas iştirakçılarına təbriklərini və xoş arzularını çatdırıb. Sonra gündəlikdəki məsələni şərh edib. Bildirib ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi Azərbaycan Prezidentinin "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 18 may tarixli Fərmanının 3.1-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə hazırlanıb və hərbi qulluqçuların icbari sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsinə yönəlib.

Komitə sədri qeyd edib ki, layihədə dövlət icbari şəxsi sığortanın prinsipləri, sığortaolunanın, sığortaçının və sığortalının hüquq və vəzifələri, sığortaolunanların və sığortalıların uçotu və sığorta haqlarının hesablanması, sığorta haqlarının ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası, dövlət icbari şəxsi sığortanın aparılması qaydası, sığorta ödənişinin verilməsi və verilməsindən imtina halları, sığorta vəsaitlərinin formalaşma mənbələri, habelə dövlət icbari şəxsi sığortanın həyata keçirilməsinə nəzarət öz əksini tapıb.

Ziyafət Əsgərov bildirib ki, hərbi qulluqçuların həyat və sağlamlığının təminatı ilə bağlı işlərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və nazirliyin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondu tərəfindən dövlət icbari şəxsi sığortası sahəsində həyata keçirilməsi müsbət hal kimi qiymətləndirilməlidir. Çünki sığorta vəsaitlərinin müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsinin maliyyələşdirilməsinə yönəlməsi bu kateqoriyadan olan şəxslərin sosial təminatının yaxşılaşmasına şərait yaradacaq, onların rifahının yüksəldilməsində mühüm addım olacaq.

Komitə sədri vurğulayıb ki, mövcud layihə qəbul edildiyi təqdirdə "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" qanun bu sahədə idarəetmənin təkmilləşdirilməsinə və sığortaolunanların dövlət icbari şəxsi sığortasının təmin olunmasının gücləndirilməsinə xidmət edəcək.

Sonra komitədə müzakirələr aparılıb. Komitə sədrinin müavini Hikmət Məmmədov hazırkı dövrdə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinə hərbi qulluqçuların sığortası ilə bağlı qanun layihəsinin daxil olmasını yüksək qiymətləndirib. Qeyd edib ki, bu gün hamımız qürurla ötən payız əldə etdiyimiz tarixi Qələbənin ildönümünə yaxınlaşırıq. Şəhid ailələri və qazilərlə intensiv görüşlər keçirilir. Bu qanun layihəsi Zəfər gününün memarı olan Ali Baş Komandanın hərbi qulluqçulara qayğısının daha bir təzahürüdür.

İclasda qanun layihəsinə münasibət bildirən deputatlar Aqil Abbas və Elman Məmmədov da sənədi yüksək dəyərləndiriblər. Bir sıra təkliflərini diqqətə çatdırıblar.

Fikir mübadiləsindən sonra yekdil qərarla "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitənin iclasında deputatlar Nizami Səfərov, Bəxtiyar Sadıqov, Əminə Ağazadə, Elşad Mirbəşir oğlu, Erkin Qədirli, Aydın Mirzəzadə iştirak ediblər.

# Milli Məclisdə "Dərman vasitələri haqqında" qanun layihəsi müzakirə üçün plenar iclasa tövsiyə edilib

Noyabrın 3-də Milli Məclisin Səhiyyə komitəsinin onlayn iclası keçirilib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Əhliman Əmiraslanov qarşıdan gələn 8 Noyabr - Zəfər Günü münasibətilə təbriklərini çatdırıb.

Gündəlik haqqında məlumat verən Əhliman Əmiraslanov bildirib ki, gündəliyə Su Məcəlləsində, Gömrük Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) daxildir. Sənəd "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq hazırlanıb. Bu məqsədlə müvafiq hüquqi hərəkətlərə və xidmətlərə görə yeni dövlət rüsumları müəyyən edilib.

Belə ki, "Dərman vasitələri haqqında" qanunun "Dərman vasitələrinin dövlət qeydiyyatı" adlı 6.10-cu maddəsi yeni redaksiyada verilir. Dəyişikliyə əsasən, dərman vasitələrinin və maddələrinin dövlət qeydiyyatı, o cümlədən yenidən dövlət qeydiyyatı və onların qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatı, gigiyenik sertifikatın verilməsi üçün "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənilir.

Komitə üzvləri qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

Sonra iclasda cari məsələlər müzakirə olunub. Komitə sədrinin müavini Rəşad Mahmudov, deputatlar Məlahət İbrahimqızı, Kamaləddin Qafarov, İlham Məmmədov səhiyyə sahəsinə dair müxtəlif məsələlərlə bağlı rəy və təkliflərini səsləndiriblər.

Onlayn iclasda Milli Məclisin deputatları Anatoliy Rafailov, Kamilə Əliyeva, Sədaqət Vəliyeva, Ülvi Quliyev və Soltan Məmmədov da iştirak ediblər.

# Bələdiyyə vergiləri və ödənişlərlə bağlı qanun layihəsi müzakirə olunub

Noyabrın 3-də Milli Məclisin Regional məsələlər komitəsinin onlayn formatda iclası keçirilib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Siyavuş Novruzov noyabrın 8-də Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfərimizin ildönümünün qeyd olunacağını diqqətə çatdırıb. O, Zəfərin qazanılmasında canlarını fəda etmiş şəhidlərə rəhmət, müharibədə iştirak etmiş qazilərə cansağlığı arzulayıb. Müharibədə bizi Qələbəyə aparan amillərdən danışan Siyavuş Novruzov Azərbaycan xalqını və ordusunu bir yumruq kimi səfərbər edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderlik keyfiyyətlərini xüsusi vurğulayıb.

Sonra gündəlikdəki "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edən komitə sədri sənəddə yerli əhəmiyyətli tikinti materialları üzrə (kərpic-kiramid gilləri, tikinti qumları, çınqıl xammalı) bələdiyyə büdcəsinə ödənilən mədən vergisinin dövlət vergilərinə aid edildiyini bildirib.

Komitə üzvləri Məzahir Əfəndiyev, Kamran Bayramov, Cavid Osmanov, Səttar Möhbalıyev qanun layihəsinin müzakirəsində çıxış ediblər. Bildirilib ki, sənəd Milli Məclisin müzakirəsində olan Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə uyğun olaraq hazırlanıb. Bələdiyyələrin yerli vergiləri toplamaqda qarşılaşdıqları problemlərdən danışan komitə üzvləri xüsusən bu vergi növü üzrə onların yığımlarının çox cüzi olmasına diqqət çəkiblər, bu vergi növü üzrə yığımların vergi orqanlarına tapşırılması təqdir edilib.

Deputatlar qanun layihəsini birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

İclasda Regional məsələlər komitəsi sədrinin müavini Elşən Musayev, komitə üzvləri Nizami Cəfərov, Emin Hacıyev, Malik Həsənov, Səbinə Xasayeva, Aqil Məmmədov, Tahir Rzayev, Əliabbas Salahzadə və digər şəxslər də iştirak ediblər.

# BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı konfransında Azərbaycan yeni hədəflərlə çıxış edib

Şotlandiyanın Qlazqo şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı konfransında Paris Sazişindən sonra 5 illik dövrün nəticələri müzakirə edilir.

Konfrans çərçivəsində Azərbaycan nümayəndə heyəti Qlobal Ekologiya Fondunun icraçı direktoru, Dünya Təbiəti Mühafizə İttifaqının rəhbəri və İslam İnkişaf Bankının prezidenti, həmçinin Yaşıl İqlim Fondunun rəhbərliyi, Səhralaşmaya qarşı Konvensiyanın Baş katibi, Ümumdünya Meteorologiya Təşkilatının Baş katibi və İqlim Dəyişmələri üzrə Hökumətlərarası panelin sədri ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Emin Qarabağlı məlumat verib.

Nazirliyin nümayəndəsinin sözlərinə görə, konfransda "Yaşıl İqtisadiyyat"a keçid istiqamətində qəbul olunmuş inkişaf proqramları, iqtisadiyyatın sürətlə inkişaf etməsinə baxmayaraq, ölkəmizin qlobal emissiyalarda payının çox cüzi, 0,15 faiz təşkil etməsi haqqında məlumatlar verilib: "Qlobal səylərə öz töhfəsini vermək məqsədilə Azərbaycan konfransda yeni hədəflə çıxış edərək, 2050-ci ilə qədər əlavə könüllü öhdəlik kimi emissiyaların 40 faizədək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılmasını bəyan edib. Eyni zamanda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının reallaşması və bu ərazilərdə "Yaşıl Enerji Zonası"nın yaradılması planları haqqında danışılıb.

Konfransda həmçinin iqlim dəyişmələrinin fəsadlarını minimuma endirmək üçün Azərbaycanda erkən xəbərdarlıq sisteminin yaradılması məqsədilə hidrometeoroloji müşahidə şəbəkəsinin modernləşdirilməsi barədə məlumat verilib".

# Xətai rayonunda Vətən müharibəsi şəhidi Qərib Baxşəliyevin xatirə lövhəsinin açılışı olub

Noyabrın 3-də Vətən müharibəsi şəhidi polkovnik-leytenant Baxşəliyev Qərib İnqilab oğlunun anım mərasimi keçirilib. Anım günündə şəhidin məzarı ziyarət edilib, Xətai rayonunda xatirə lövhəsinin açılışı olub.





AZƏRTAC xəbər verir ki, tədbirdə Milli Məclis Sədrinin müavini Adil Əliyev, Xətai və Nərimanov rayon İcra hakimiyyətlərinin başçıları, YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Milli Məclisin deputatları, Vətən Müharibəsi qəhrəmanları polkovnik Nizami Mövlanov, polkovnik-leytenant Anar Mirzəyev, ictimaiyyət nümayəndələri və şəhidin ailə üzvləri iştirak ediblər.

Mərasimdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər bildiriblər ki, bütün şəhidlərimiz Azərbaycanın qəhrəmanlıq salnaməsini yazan, bizim qəlbimizdə əbədi yaşayan igid Vətən övladlarıdır. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu, bütün xalqımız vahid birlik nümayiş etdirərək 30 ilə yaxın işğal altında olan ərazilərimizi yağı tapdağından azad edib. Bununla da qürurumuzun, şücaətimizin varlığı bir daha təsdiq olunub. Vətən uğrunda canını fəda etməkdən müqəddəs heç nə ola bilməz. Şəhidlərimiz bizim üçün əbədi yaşayacaqlar. Şəhidin ailə üzvləri göstərdikləri diqqət və qayğıya görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildiriblər.

Daha sonra məktəblilər Vətənə həsr olunan şeirlər səsləndiriblər.

Sonda Vətən müharibəsi şəhidinin ruhuna dualar oxunub, xatirə lövhəsinin qarşısına əklil, tər gül-çiçək dəstələri düzülüb.

# Azərbaycanın və Özbəkistanın Milli Olimpiya komitələri arasında anlaşma memorandumu imzalanıb



MDB, Baltikyanı ölkələr və Gürcüstan Milli Olimpiya komitələrinin (MOK) rəhbərlərinin regional forumu çərçivəsində Azərbaycanın və Özbəkistanın Milli Olimpiya komitələri arasında anlaşma memorandumu imzalanıb.

MOK-dan AZƏRTAC-a bildiriblər ki, sənədi Daşkənddə keçirilən illik regional forumda iştirak edən MOK baş katibinin müavini Azər Əliyev və Özbəkistan MOK-un prezidenti Rustam Şaabdurrəhmanov imzalayıblar.

Milli Olimpiya komitələrinin rəhbərlərinin və məsul şəxslərinin iştirak etdikləri forumun məqsədi MDB dövlətləri, Baltikyanı ölkələr və Gürcüstan arasında siyasi, iqtisadi, mədəni sahələrdə, idman istiqamətində davam edən əməkdaşlığı daha da gücləndirmək, təcrübə mübadiləsi aparmaq və birgə inkişaf üçün yeni planları müzakirə etməkdir. Qitənin 14 ölkəsindən 34 nümayəndənin qatıldığı forumda Azərbaycanı MOK baş katibinin müavini Azər Əliyev və beynəlxalq əlaqələr şöbəsinin müdiri Anar Bağırov təmsil edirlər. Azər Əliyev forumda "Azərbaycan Milli Olimpiya Komitəsinin 2017-2021-ci illərdəki fəaliyyəti haqda" məruzə ilə çıxış edib.

Regional forumun iştirakçıları idmanın inkişafı ilə bağlı təklifləri müzakirə etməklə yanaşı, yeni strateji planlarla bağlı da fikir mübadiləsi aparıblar.

# Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri keçirilib

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, müqəddəs torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri davam edir.






Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, şəhid kapitan Meydanov Elməddin Bahəddin oğlu, leytenant Abbasov Murtuz Çingiz oğlu, gizir Səmədov Nicat Şahin oğlu, kiçik gizir Talıbov Təbriz Məhərrəmli oğlu, əsgər İsgəndərli Səbuhi Yaşar oğlu və Əliyev Rəvan Yusif oğlunun boya-başa çatdıqları doğma yurdlarında keçirilmiş anım mərasimlərində DSX-nin rəsmiləri, rayon rəhbərliyi, şəhidlərin ailə üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimlərdə şəhidlərin məzarları ziyarət edilib, üzərilərinə gül çələngləri düzülüb.

Tədbirlərin iştirakçıları Azərbaycanın ərazi bütövlüyünün bərpası və tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Vətən müharibəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin siyasi və sərkərdə məharəti, xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdəti, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində qazanılmış möhtəşəm Qələbədən danışıb, qəhrəman şəhidlərin sərhədçi andına və şərəfinə sadiq qalaraq Vətən müharibəsinin ilk günündən döyüş meydanında şücaət və fədakarlıq nümayiş etdirdikləri, qarşıya qoyulan döyüş tapşırıqlarını qanları və canları bahasına layiqincə yerinə yetirərək şəhadət zirvəsinə ucaldıqlarını vurğulayıblar.

Vətən müharibəsində xalqımıza Qələbə sevinci yaşatmış şəhidlərimizin əziz xatirəsinin hər zaman sonsuz ehtiramla və minnətdarlıqla anılacağı, onların qəhrəmanlıq mirasının gələcək nəsillər üçün nümunə olacağı qeyd edilib.

Şəhidlərin ailə üzvləri dövlətimiz tərəfindən torpaqlarımızın azad edilməsi uğrunda həlak olan qəhrəmanların xatirələrinin əbədiləşdirilməsi, onların ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

# YAP Mərkəzi Aparatında "Zəfər və qəhrəmanlıq simvolu: məğrur Azərbaycan qadını" mövzusunda "dəyirmi masa" keçirilib



Noyabrın 3-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında "Zəfər və qəhrəmanlıq simvolu: məğrur Azərbaycan qadını" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra şəhidlərin xatirəsinə həsr edilən kompozisiya təqdim olunub.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Aparatının Gender siyasəti şöbəsinin baş məsləhətçisi Zəkiyyə Musayeva bildirib ki, Azərbaycanın tarixi Qələbəsində Prezident İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəqiq və məqsədyönlü siyasəti böyük rol oynayıb. Dövlət başçısı bütün platformalarda Ermənistanın işğalçılıq siyasətinə qarşı mübarizəyə rəhbərlik edib. Azərbaycan xalqının mənafeyinin qətiyyətli müdafiəsi, məqsədyönlü, ardıcıl siyasət, xalqın həmrəyliyi və Ali Baş Komandan ətrafında sıx birləşməsi nəticəsində tarixi Qələbə qazanılıb.

"Dəyirmi masa"da çıxış edən YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Azərbaycan rəşadətli ordumuz və Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində cəmi 44 gün ərzində böyük bir qəhrəmanlıq salnaməsi yaradıb. Torpaqlarımızın azadlığı uğrunda canından keçən igid vətən övladları öz qanları bahasına bu şərəfli tarixi yazıblar. Qarabağ kimi cənnət məkanı canları, qanları bahasına yağı düşməndən alıb bizlərə həmişəlik əmanət edən, torpaqlarımızda zəfər bayrağını dalğalandıran qəhrəman Vətən oğullarının əziz xatirəsini hər kəs ürəyində böyük sevgi və ehtiramla yaşadır. Bu mübarizədə xalqımızın vətənpərvər, cəsur, mərd oğulları, qızları Qarabağımızın öz sahiblərinə qovuşması üçün qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə ucaldılar. Ona görə də şəhid anaları hər zaman başlarını dik tutmalıdırlar. Belə qəhrəman övladlar böyüdüb boya-başa çatdırdıqlarına görə onların hər birinə minnətdarıq.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, bu gün Azərbaycan dünyaya Günəş kimi doğur, onun beynəlxalq miqyasdakı mövqeləri möhkəmlənir. Bunun əsas səbəblərindən bir də milli birliyimiz, gücümüzdür.

Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyünün bərpası uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə diqqət və qayğının yüksək səviyyədə olduğunu qeyd edən B.Muradova vurğulayıb: "Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir".

Dövlət Komitəsi sədrinin fikrincə, şəhid anaları ictimai həyatda fəal olmalı, gənc nəslin təlim-tərbiyəsində yaxından iştirak etməlidirlər.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin də çıxışında şəhid analarına vətənə igid, qəhrəman övladlar yetişdirdiklərinə görə təşəkkür edib. Otuz ilə yaxın torpaqlarımızın erməni işğalı altında qaldığını deyən Mixail Zabelin bildirib ki, Azərbaycan dövləti, Prezident İlham Əliyev münaqişənin sülh yolu ilə həlli üçün böyük səylər göstərdi. Amma erməni tərəfinin işğalçılıq siyasətindən əl çəkməməsi müharibəni qaçılmaz etdi.

Mixail Zabelin Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların təmsilçilərinin döyüşdüyünü diqqətə çatdıraraq deyib: "Müharibədə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri döyüşərək torpaqlarımızı işğaldan azad etdilər. Çünki Azərbaycan burada yaşayan bütün xalqların Vətənidir".

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxışında deyib ki, Azərbaycanın qazandığı Zəfərin ciddi əsasları var. Çünki dövlətimiz bu zəfərə təkcə 44 gün ərzində nail olmayıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin ötən illər ərzində həyata keçirdiyi siyasət bizi qələbəyə doğru aparıb. O, həmçinin qadınların qazanılan qələbədə rolunu xüsusi vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə isə qeyd edib ki, Vətən müharibəsində qələbənin qazanılmasında milli birlik amili böyük rol oynayıb. O bildirib ki, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimiz hər zaman qəlbimizdə yaşayacaq, onlar heç vaxt unudulmayacaqlar. Çünki Zəfər tariximizi məhz şəhidlərimiz öz qanları ilə yazıblar. Ona görə də şəhid anaları hər zaman qürurlu olmalı, öz övladları ilə fəxr etməlidirlər.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Şəxsi heyət baş idarəsinin qadınlar və hərbi qulluqçuların ailələri ilə iş şöbəsinin rəisi Zümrüd Səmədova hərbi qulluqçular, şəhid ailələri ilə bağlı görülən işlər barədə fikirlərini bildirib.

Vətən müharibəsində Azərbaycan qadınının cəsarətindən, mərdliyindən, şücaətindən söhbət açan Zümrüd Səmədova onların səngərdə əsgərlərə ana, bacı, həkim, tibb bacısı, yeri gələndə isə döyüş yoldaşı olduğunu vurğulayıb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında Azərbaycan gənclərinin yüksək vətənpərvərlik ruhunda yetişdiyini bildirib, burada qadınların, anaların rolunu xüsusi vurğulayıb.

Tədbirdə həmçinin şəhid Manaf Bəhmanlının anası Suray Bəhmanova, şəhid Denis Əliyevin həyat yoldaşı Aynurə Əliyeva, şəhid Elçin Mansurovun anası Məleykə Mansurova, şəhid Elvin Şükürlünün anası Vəfa İbişova, şəhid Murad Qurbanovun anası Mehriban Qurbanova və şəhid Nicat Tarverdiyevin anası Şükran Farrukqızı çıxış edərək övladlarının şərəfli ömür və döyüş yollarından bəhs ediblər. Şəhid anaları dövlət tərəfindən göstərilən diqqət və qayğıdan razılıq ifadə ediblər.

# Gəncə Dövlət Universitetində Zəfər günü ilə əlaqədar tədbir keçirilmişdir










Gəncə Dövlət Universitetində Zəfər günü ilə əlaqədar keçirilən tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin rəhbərləri, şəhid valideynləri, qazilər, eləcə də Vətən müharibəsində şücaət göstərən hərbçilər iştirak etmişlər.

Tədbirdə Vətən müharibəsində şəhid olmuş igid övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir. Sonra universitetin rektoru, professor Yusif Yusibov diqqətə çatdırmışdır ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli ordumuz 28 il erməni əsarətində olan torpaqlarımızı azad etdi. Noyabrın 8-də uzun sürən həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə unikal əməliyyat kimi daxil oldu.

Rektor vurğulamışdır ki, torpaqlarımızın erməni işğalçılarından azad edilməsində Gəncə Dövlət Universitetinin 39 nəfər vətənpərvər oğlu iştirak etmişdir. Onlardan 33-ü tələbə, 6-sı isə əməkdaş olmuşdur. Haqlı olaraq təhsil ocağının kollektivi bu insanlarla fəxr edir.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-nin Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır. Artıq həmin gün yaxınlaşır. İndi ölkəmizdə bu əziz bayram yüksək səviyyədə qeyd edilir.

Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək o qanlı-qadalı günlərdən danışaraq demişdir ki, cəbhədə uğursuzluq qazanan erməni işğalçıları müharibənin qızğın çağında dinc əhalini raket atəşinə tutmağa başladılar. Xüsusilə 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə atdıqları raket zərbələri nəticəsində insan tələfatı ilə yanaşı, çoxlu sayda evlər də dağıldı. Yüzlərlə insan evsiz-eşiksiz qaldı. Ölənlər arasında azyaşlıların da olması erməni faşizminin iç üzünü bir daha dünyaya göstərdi.

Niyazi Bayramov bombardman nəticəsində evləri dağılmış insanların yeni evlərlə təmin olunması üçün dövlət başçısının həyata keçirdiyi tədbirləri də iştirakçıların nəzərinə çatdırmışdır.

Türkiyə Respublikasının Gəncədəki Baş konsulu Zəki Öztürk çıxışında 44 günlük müharibə zamanı qardaş ölkənin, şəxsən dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın Azərbaycan xalqının yanında olmasını, onun haqq işini dəstəkləməsini təbii hal kimi dəyərləndirmiş və Azərbaycan-Türkiyə qardaşlığının bundan sonra da sarsılmaz olacağını diqqətə çatdırmışdır.

Sonra tədbirdə birinci və ikinci Qarabağ müharibəsinin iştirakçısı, cəsur döyüşçü, Suqovuşanın azad olunmasında əsl şücaət göstərən polkovnik Qalib Cəfərov, universitetin fizika kafedrasının müəllimi, şəhid Elşən Abdullayevin atası Sabir Abdullayev, Vətən müharibəsi iştirakçısı, universitetin IV kurs tələbəsi Tural Zeynalov, Vətən müharibəsi qazisi, "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunmuş Ramin Şirinov çıxış edərək keçdikləri döyüş yolundan danışmış, Zəfər günü münasibətilə tədbir iştirakçılarını təbrik etmişlər.

Gəncə Dövlət Universitetinin müəllim və tələbələrinin iştirakı ilə təqdim olunan böyük bayram konsertindən sonra universitetin baş binasında və ikinci tədris korpusunda şəhidlərdən və Vətən müharibəsi iştirakçılarından bəhs edən guşələrin açılışı olmuşdur. İştirakçılar guşənin önünə tər qərənfillər düzmüşlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakı şəhəri ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarında 116 müasir qəsəbə salınıb

"Azərbaycanda qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində sistemli dövlət siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Prezident İlham Əliyev məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsinə daim diqqət göstərir. Məcburi köçkünlər üçün yeni qəsəbələr salınıb, onlara mənzillərin verilməsində ədalət və şəffaflıq təmin edilib. Sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların problemlərinə həssaslıqla yanaşan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ən ağır vəziyyətdə və qəzalı şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı tapşırığının icrası davam etdirilib".

AZƏRTAC xəbər verir ki, bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mətbuat xidmətinin açıqlamasında bildirilib.

Qeyd olunub ki, bu günədək məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Bakı şəhəri ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarında 116 müasir qəsəbə salınıb. Qəsəbələr bütün zəruri sosial-texniki infrastrukturla təchiz edilib. 300 mindən çox məcburi köçkünün, yəni 62 mindən çox məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən Sumqayıt şəhərində 1242 ailəlik qəsəbə tikilməkdədir. Tikintisi 2021-ci ilin ortalarında başlayan qəsəbənin, 2022-ci ilin ortalarında istifadəyə verilməsi gözlənilir. Dövlət Komitəsi tərəfindən 2019-2020-ci illərdə ağır vəziyyətdə yaşayan məcburi köçkünlər üçün inşa edilmiş yaşayış kompleksləri Prezident İlham Əliyevin tapşırığına əsasən, Vətən müharibəsi iştirakçılarına, Qarabağ əlillərinə, şəhid ailələrinə, əlillərə verildiyi kimi, 1242 ailəlik qəsəbənin də tikintisi başa çatdıqdan sonra həmin kateqoriyadan olan insanlara verilməsi nəzərdə tutulub.

Azərbaycanın ötən ilin payızında Ermənistanı məğlubiyyətə uğradaraq, öz tarixi ərazilərini işğaldan azad etməsi nəticəsində yaranan yeni reallıqlar, o cümlədən məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışına hazırlıq başlayıb. Təhlükəsizlik şəraiti, kommunikasiya təminatı yaradıldıqdan, yaşayış sahələri bərpa olunduqdan və yenidən tikildikdən sonra məcburi köçkünlərin beynəlxalq normalar əsasında həmin ərazilərə köçürülməsinə başlanacaqdır.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





# Azərbaycanın Zəfəri beynəlxalq birlik tərəfindən də dəstəkləndi

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlət başçısı kimi xalq-hakimiyyət-ordu birliyinə nail olaraq düşmən üzərində tarixi qələbə qazanması beynəlxalq birlik tərəfindən də dəstəklənir. Döyüşlərin getdiyi haqq savaşında əldə etdiyimiz Qələbədən sonra bir sıra xarici KİV əməkdaşlarının ölkəmizə səfərləri, heç də təsadüfi deyildi.

Azərbaycan Prezidenti nəinki Ali Baş Komandan olaraq cəbhədə vəziyyəti nəzarətdə saxlayır, eyni zamanda, mətbuat vasitəsilə beynəlxalq aləmə bu döyüşlərin başlanma səbəblərini də açıqlayırdı. Həmin müsahibələrdə Azərbaycanın haqq işini dəstəkləməyən, Ermənistanın təcavüzkarlığına yenə də göz yuman bəzi dövlətlərin KİV-nin qərəzli suallarına tam səmimi, dolğun faktlarla cavab verən dövlətimizin başçısı bu missiyanı da uğurla yerinə yetirirdi.

Döyüşlərin ilk günündən başlayaraq qardaş Türkiyənin Azərbaycanı dəstəkləməsi, ölkəmizin tarixi ərazilərinin işğaldan azad olunması üçün daim yanında olacağını bəyan etməsi bəzi qüvvələri narahat edirdi. Həmin günlər xarici KİV tərəfindən daha çox səsləndirilən suallardan biri belə idi: “Azərbaycan nə üçün əks-hücuma keçdi?”

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin “Anadolu” Agentliyinin əməkdaşını da maraqlandıran həmin suala belə cavab vermişdi: “Son müddət ərzində Ermənistanın bizə qarşı təxribatları müntəzəm xarakter almışdı. Həm bizə qarşı yönəlmiş açıqlamalar, eyni zamanda, addımlar onu göstərirdi ki, Ermənistan yeni müharibəyə hazırlaşır”.

Dövlətimizin başçısı ötən il BMT-nin Baş Assambleyasının sessiyasında çıxış edərkən də demişdi ki, Ermənistan yeni savaşa hazırlaşır. Bu çıxışdan üç gün sonra ermənilər tərəfindən mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə tutuldu. Yenə də şəhidlər verdik. Nəhayət, sentyabrın 27-də Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başladı və Vətən müharibəsi Zəfərlə nəticələndi.

Bir il əvvələ qayıdarkən, bütün bu prosesləri, hadisələri nəzərdən keçirərkən belə qənaətə gəlirik ki, Ermənistanın yeni rəhbərliyi hansısa hərbi uğurla öyünmək istəyirmiş. Dövlət başçımızın da qeyd etdiyi kimi, ancaq hesablamaları çox səhv aparmışdılar, böyük xətalar törətmişdilər və bunun nəticəsində acı məğlubiyyətə uğramışdılar.

30 ilə yaxın müddətdə Ermənistan-Azərbaycan münaqişəsinin həllində birbaşa missiyası tərəflər arasında vasitəçilik olan ATƏT-in Minsk qrupunun fəaliyyətinin yarıtmaz olduğu dəfələrlə qeyd edilib, yüksək tribunalardan tənqid olunub. Həmin beynəlxalq qurumun öz üzərinə düşən missiyanı yerinə yetirmədiyi göz qabağında idi: ərazisinə təcavüz edilən Azərbaycanla işğalçı Ermənistanı “kompromis variant”a çağıran ATƏT-in Minsk qrupunun, əslində, bu məsələyə ikili standartlarla yanaşdığı açıq-aşkar görünürdü.

Əlbəttə, məsələyə digər beynəlxalq təşkilatların da laqeydliyi öz təsirini göstərmişdi: Ermənistana heç bir siyasi, iqtisadi, humanitar sanksiya tətbiq edilmədiyi üçün təcavüzkarlar özlərini “məğlubedilməz” kimi aparırdılar.

Azərbaycan Prezidenti növbəti dəfə bu məsələyə münasibətini açıq şəkildə bəyan etdi: “...Əgər Minsk qrupu Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, təbii ki, Ermənistan məcbur olub işğal edilmiş torpaqlardan çıxacaqdı və belə olan halda müharibəyə ehtiyac qalmazdı. Ancaq onlar bu təzyiqi etmədilər. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən üç dövlət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür. Yəni onlar dünya miqyasında ən güclü ölkələr sayılır. Məgər, onların siyasi çəkisi, siyasi imkanları olmayıb ki, Ermənistana bu ciddi mesajları göndərsinlər? Sadəcə olaraq, nə hərb, nə sülh siyasətinə üstünlük verirdilər”.

Azərbaycan Prezidentinin münaqişənin müharibə mərhələsinə keçməmişdən öncə Ermənistana sanksiyaların tətbiq edilməsi ilə bağlı Minsk qrupunun həmsədrlərinə və digər böyük dövlətlərə dəfələrlə müraciətini xalqımız da, beynəlxalq birlik də yaxşı xatırlayır. Əlbəttə, bu savaşın qarşısını ala bilərdilər. Əgər işğalçıya sanksiyalar tətbiq edilsəydi, Ermənistan üçün böyük çətinliklər yaranacaqdı və onlar məcbur olub torpağımızdan çıxacaqdılar. Azərbaycan bütün imkanlardan istifadə etdi ki, münaqişə sülh yolu ilə həll edilsin, qan tökülməsin. Ancaq bununla bərabər, xalqımızın və dövlət başçısının ümumi fikri belə idi: biz bu vəziyyətlə barışmayacağıq. Nəyin bahasına olursa-olsun, öz torpağımızı azad edəcəyik. Ona görə də dəfələrlə təcavüzkarlara şans verilirdi.

Ondan sonrakı dövr də göstərdi ki, Minsk qrupu, sadəcə, bu məsələni həll etmək fikrində deyil. 44 günlük müharibə zamanı da bunu bir daha gördük. Çünki BMT-də dövlətimizə qarşı məsələni qaldıran da məhz Minsk qrupuna həmsədrlik edən bəzi ölkələr idi.

ATƏT-in Minsk qrupu üzvlərinin 44 günlük Vətən müharibəsindən sonra Azərbaycana gəlişləri zamanı dövlət başçısı bir daha onlara bildirdi ki, biz bu məsələni həll etdik - Dağlıq Qarabağ münaqişəsi başa çatdı, “Dağlıq Qarabağ” adlı inzibati ərazi, yəni qurum mövcud deyil. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının sessiyasında çıxışında da Azərbaycan Prezidenti bütün ölkələrə müraciət edərək bildirdi ki, bundan sonra “Dağlıq Qarabağ” ifadəsi işlədilməsin. Azərbaycan ərazisində belə bir qurum yoxdur.

Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində ilk gündən sonadək ön cəbhədə döyüşən müzəffər ordumuzun yanında olduğu kimi, Azərbaycanın bu savaşdakı haqlı mövqeyini, eləcə də qalibiyyətlə məğlubiyyətin səbəblərini incəliklərinədək açıqlamaqla da düşmənə sarsıdıcı zərbələr endirirdi. Sonda Azərbaycanın Zəfəri beynəlxalq birlikdə dəstəkləndi.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

# İlham Əliyevin Zəfər siyasətinin quruculuq mərhələsi

*Əvvəli 1-ci səh.*

30 ilə yaxın danışıqlar prosesində Azərbaycan heç vaxt öz milli maraqlarına zidd olan təklifləri yaxına buraxmadı. Danışıqlar prosesində Ermənistanın maraqları Qərb tərəfindən nə qədər müdafiə olunsa da, respublikamıza nə qədər təzyiqlər edilsə də, dünya erməniliyi və erməni təəssübkeşliyi öz niyyətini həyata keçirə bilmədi. Azərbaycan inkişaf etdikcə, gücləndikcə Ermənistanı və dünya erməniliyini küncə sıxışdırırdı.

## Tarixi şəraitin yetişdiyi an

Ötən ilin sentyabr ayının 27-də Ermənistanın hərbi təxribatları isə artıq tarixi şəraitin yetişdiyi an idi. Vəziyyəti düzgün dəyərləndirən dövlətimiz danışıqlardan anlamayan, aqressiya nümayiş etdirən, Azərbaycanı işğalla təhdid edən Ermənistanı elə döyüş meydanında cəzalandırdı. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız İlham Əliyevin “dəmir yumruğ”u ilə cəmi 44 gün ərzində işğaldan azad edildi. Bu qələbə ilə Azərbaycan ziddiyyətli beynəlxalq münasibətlər sistemində, xüsusən beynəlxalq hüquqa məhəl qoyulmadığı bir şəraitdə öz haqqını təmin etdi.

44 gün ərzində döyüş meydanında qazanılmış parlaq hərbi qələbə əslində uzun illər boyu aparılmış danışıqlar prosesində ölkəmizin haqlı və prinsipial mövqeyini qətiyyətlə qorumuş Prezident İlham Əliyevin müdrik fəaliyyətinin, Azərbaycanı dünya arenasında layiqincə təmsil etməsinin, xalq-iqtidar birliyinin nəticəsi oldu. Bu zəfər onu da göstərdi ki, dövlət başçısı nəyi nə zaman və necə edəcəyini yaxşı bilir.

Bu müharibə həm də İlham Əliyevin diplomatiyasının təntənəsi oldu. Məlum olduğu kimi, ayrı-ayrı dövlətlər və təşkilatlar hər zaman bəyan edirdilər ki, artıq keçmişdə qalmış Dağlıq Qarabağ probleminin güc yolu ilə həlli yoxdur. Bu baxımdan hərbi əməliyyatlar dövründə Azərbaycanın beynəlxalq təzyiqlərlə üzləşəcəyi əvvəldən məlum idi. Erməni təəssübkeşləri müharibə günlərində Azərbaycana çox təzyiqlərin edilməsinə çalışdılar, hətta BMT-də Ermənistanın maraqlarını ehtiva edən sənədin qəbuluna çalışdılar. Lakin niyyətləri puç oldu, çünki Prezident İlham Əliyev özünün uğurlu diplomatiyası ilə bütün təzyiqlərin hamısını əvvəldən neytrallaşdırmışdı.

İlham Əliyev həm də sübut etdi ki, problemin güc yolu ilə həlli mümkündür. Azərbaycan bu qələbə ilə sübut etdi ki, Ermənistanın öz silahlı qüvvələrinin məğlubedilməzliyi, erməni əsgərinin cəsarəti ilə bağlı iddiaları yalandan başqa bir şey deyilmiş. Ermənilərin özləri haqqında yaratdıqları “məğlubedilməzlik” mifi 44 gün ərzində darmadağın olundu. Düşmənin yüzlərlə texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. On mindən çox düşmən əsgəri silahını ataraq döyüş meydanından qaçdı. Hər dəfə paytaxtımızdakı Hərbi Qənimətlər Parkına gedəndə ordumuzun gücü və qüdrəti ilə fəxr edirik.

## İlham Əliyevin müəllifliyi ilə azad edilən ərazilərimiz bərpa olunur

İşğal olunmuş torpaqların azad olunması uğrunda savaşdan qalib çıxan Azərbaycan dövlətinin qarşısındakı ilk missiya otuz ilə yaxın erməni vandallarının vəhşilikləri nəticəsində dağıdılmış ərazilərimizin yenidən qurulması və bərpasıdır. Bu, həm də ölkəmizin milli prioritetlərindən biridir. Çünki illərdir ki, el-oba nisgili ilə yaşayan keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

İşğaldan azad olunmuş torpaqların bərpası isə hələ döyüşlərin getdiyi günlərdən başlamışdı və bu onu göstərirdi ki, Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərini sürətlə bərpa etmək əzmindədir. Ötən ilin noyabrında müharibənin başlanmasından dərhal sonra Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində ilk addımların atılmasına başlanıldı.

Qarabağın və Şərqi Zəngəzurun kənd və şəhərlərinin yenidən qurulması, insanların öz doğma yurdlarına qayıdışı, burada məşğulluğun təmin edilməsi və yeni istehsal sahələrinin yaradılması üçün, ilk növbədə, tələblərə cavab verən infrastruktur mövcud olmalıdır. Hazırda bu ərazilərdə, ilk növbədə, müasir infrastrukturun yenidən qurulması istiqamətində genişmiqyaslı layihələr icra olunur. Prezident İlham Əliyev hərbi əməliyyatların başa çatmasından və Azərbaycanın Qələbəsindən sonra dəfələrlə işğaldan azad olunmuş rayonlara səfər edib. Dövlət başçısının bütün səfərləri Qarabağda və Zəngəzurda yeni avtomobil yollarının, hava limanlarının, elektrik stansiyalarının təməlinin qoyulması ilə əlamətdar olub. Bu səfərlər zamanı “ağıllı kənd” konsepsiyası əsasında kəndlərin təməli qoyulub, bir neçə şəhərin baş planı təsdiq olunub, tarixi-mədəni abidələrin bərpası ilə bağlı layihələrə start verilib. Füzuli Beynəlxalq Hava Limanının, bir neçə yarımstansiyanın, Suqovuşana və Talışa gedən yolların qısa müddətdə inşası, Şuşanın bərpası üçün layihələrin həyata keçirilməsi göstərdi ki, işğaldan azad olunmuş ərazilərimizin bərpası sürətlə gedir.

Torpaqlarımızın azad olunmasına gedən yolda olduğu kimi hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesində də İlham Əliyev siyasətinin təntənəsi yaşanır. İşğaldan azad edilən ərazilərimiz Prezident İlham Əliyevin müəllifliyi ilə sürətlə yenidən qurulur.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

# ZƏFƏR gündəliyi

## 4 noyabr 2020-ci il



Gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd D-30 haubitsa topu, 1 ədəd “Zastava M-55” zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılır.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenə atəşə tutur.

Noyabrın 4-ü saat 01:08-dən 08:10-dək Ermənistanın Berd rayonu istiqamətindən Azərbaycanın Tovuz və Ağstafa rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən ara-sıra atəşə tutulur.

❖ ❖ ❖

Saat 08:05-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Hüsənli və Qazyan kəndlərini, eləcə də Ağcabədi rayonunun Hacılar, Qaraxanlı və Boyat kəndlərini ara-sıra artilleriya atəşinə tutur.

❖ ❖ ❖



İlham Əliyev
@azpresident
Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
17:51 · 04 Nov 20 · Twitter Web App

Prezident İlham Əliyev xalqa müjdəli xəbər verir. Dövlət başçısı özünün “Tviter” hesabında paylaşım edərək bildirir:

“Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖

Saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam rayonunun kəndlərini intensiv artilleriya atəşinə tutur. Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür.



Tərtər şəhəri və rayonun Şıxarx qəsəbəsi Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulur.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin hərbi texnikalarının sıradan çıxarılması üzrə fəaliyyətlər davam etdirilir.

Cəbhənin Xocavənd istiqamətindəki yüksəkliklərdən birinə çıxarılmış Ermənistan silahlı qüvvələrinin 1 ədəd “M-55” zenit qurğusu dəqiq atəşlə məhv edilir.

Qeyd edək ki, 1955-ci ildə istehsal edilmiş, yüngül zirehli çoxməqsədli transportyor üzərində quraşdırılmış 20 mm-lik 3 topdan ibarət zenit qurğusu aşağı hündürlükdə uçan hədəfləri və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulub.

❖ ❖ ❖



Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verir.

Cəbhədəki vəziyyəti dəyərləndirən dövlət başçısı deyir ki, Azərbaycan Ordusunun üstünlüyü davam edir: “Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik”.

Atəşkəsin elan olunması və savaşın dayandırılmasına gəlincə isə Prezident deyir ki, Ermənistan elan edilmiş humanitar atəşkəs rejimini hər dəfə pozaraq dinc əhalini hədəfə alır. Belə olan halda Azərbaycan üçün başqa yol qalmayır: “Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir”.

Məhz bu səbəbdən də Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyincə dayanmayacaq.

❖ ❖ ❖

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınır.

Ciddi döyüş itkiləri verən düşmənin kəşfiyyat-diversiya qrupu geri çəkilməyə məcbur edilir.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# Şanlı Zəfərin izi ilə...



Mərkəzi Elmi Kitabxanada AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin təşkilatçılığı ilə Azərbaycanın Vətən müharibəsindəki şanlı zəfərinin ildönümünə həsr edilmiş təqdimat - sərginin açılışı olub.

“Akademiyanın Qarabağnaməsi” mövzusunda təşkil edilən sərgidə bölmənin elmi müəssisələrində Qarabağın tarixinə, ədəbiyyatına, folkloruna, memarlığına, mədəniyyətinə, eləcə də böyük qələbəmizə həsr edilmiş kitablar və rəsm əsərləri nümayiş olunub. Açılış mərasimindən öncə tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti, bölmənin Elmi şurasının sədri, akademik İsa Həbibbəyli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində 30 il işğal altında qalan tarixi torpaqlarımızı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən işğalından azad etdiyini xatırladıb. Qeyd edib ki, Prezident İlham Əliyevin müharibənin gedişində xalqımıza müraciətləri və xarici media nümayəndələrinə verdiyi müsahibələr, vətəndaşlarımızın sosial şəbəkələrdə aktivliyi, eləcə də alimlərimizin beynəlxalq konfranslarda Ermənistanın təcavüzünü diqqətə çatdırmaları, mətbuatda məqalələrlə çıxış etmələri nəticəsində Azərbaycan nəinki hərb meydanında, eyni zamanda, informasiya müharibəsində də düşmənə qalib gəldi.

Akademik İsa Həbibbəyli ötən bir il ərzində dövlət başçısının tapşırığı əsasında Qarabağda geniş quruculuq işlərinə başlanıldığını, müasir standartlara cavab verən yolların salındığını, “ağıllı şəhər”, “ağıllı kənd” layihələrinin həyata keçirildiyini, eləcə də beynəlxalq mədəniyyət festivallarının baş tutduğunu diqqətə çatdırıb.

Xalqımızın bu günlərdə tarixi qələbəmizin ildönümünü qeyd etdiyini söyləyən AMEA-nın vitse-prezidenti sərgi vasitəsilə akademiyanın bu mövzuda apardığı tədqiqatların bir qismini ictimaiyyətə təqdim etdiyini bildirib. Vurğulayıb ki, sərgidə bölmənin elmi müəssisələrinin alimləri tərəfindən ərsəyə gəlmiş 38 monoqrafik tədqiqat və 6 institutun 16 əməkdaşının çəkdiyi rəsm əsərləri təqdim olunur. Akademik İsa Həbibbəyli nümayiş olunan sərgini Humanitar və İctimai Elmlər Bölməsinin müəssisələrinin elmi və bədii yaradıcılıq hesabatı adlandırıb.

Sonra Memarlıq və İncəsənət İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə çıxış edərək şanlı qələbəmizin ildönümünə həsr edilmiş sərginin xüsusi əhəmiyyət kəsb etdiyini deyib. Onun sözlərinə görə, təqdimatdakı rəsm əsərləri janrından və üslubundan asılı olmayaraq, qəhrəmanlıq ruhundadır və insanda fəxarət hissi oyadır.

Mərasimdə, həmçinin çıxış edən Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Könül Bünyadzadə, Tarix İnstitutunun əməkdaşı, batalist rəssam Cəmaləddin İsmayılov və şəhid anası Simuzər Bağıyeva qalib xalq kimi yaşamağın qürurverici olduğunu söyləyiblər. Çıxış edənlər Vətən müharibəsindəki qazanılan zəfərin mahiyyətinin gələcək nəsillərə çatdırılmasının önəmini qeyd ediblər.

***Ülkər XASPOLADOVA, “Azərbaycan”***

## Şuşa Zəfərinin tərənnümü




Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevin “Qarabağ Zəfəri-Şuşa” adlı kitabı çapdan çıxıb. Kitab 44 günlük müharibənin memarları olan Azərbaycan Ordusuna və bu günlər ərzində ordunun yanında olan Azərbaycan xalqının əzminə və qələbəsinə həsr edilib.

Şuşa istər yerləşdiyi coğrafi mövqe, istərsə də tarixi və mədəni imkanlarına görə ciddi şəkildə fərqlənir. Şuşa sadəcə yaşayış məntəqəsi kimi strateji əhəmiyyət kəsb edən bir yer deyil, eyni zamanda, mədəniyyətin beşiyi, bir çox görkəmli sənətkarların, musiqiçi, memar, rəssam və ədiblərin, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin yetişdiyi bir şəhərdir. Məhz bu baxımdan Şuşa şəhərinin tarixini və toponimlərini, omonimlərini və oykonimlərini öyrənmək Azərbaycan elmində mühüm işlərdən biri hesab edilir. Təqdim edilən kitabda Azərbaycanın ən qədim şəhəri olan Şuşanın tarixi və işğala qədər olan dövrü, 2020-ci ildə azad olunması və ondan sonra atılan addımlar araşdırılıb.

Azərbaycan xalqının mədəniyyətində mühüm rol oynayan Şuşa şəhərində baş verən vacib hadisələr, şəhərin iqtisadi, siyasi, tarixi, mədəni həyatı sənədlərlə, qaynaqların, arxiv sənədlərinin, yerli və xarici alimlərin tədqiqatlarının bilgisi ilə qələmə alınıb oxucuların önünə çıxarılıb. Xalqın tarixi kimi, sözün də tarixi var. Bu mənada tarixi-toponimik araşdırmalar keçmiş və ötənlər haqqında olsa da, keçmiş üçün yox, bu gün üçün, bu günü dərk etmək və sabahlara yol açmaq üçündür.

Təqdim edilən kitab Zaur Əliyevin sayca 17-ci kitabıdır və burada dəyərli alimlərin və diaspor üzvlərinin rəyləri öz əksini tapmışdır. Kitab geniş oxucu kütləsi və Qarabağ tarixini araşdıran tədqiqatçılar üçün nəzərdə tutulub.

***Aydan XƏLİLOVA, “Azərbaycan”***

# Tarixin ən şanlı 44 günü

Qələbə ilə başa çatan 44 günlük şanlı Zəfər tarixindən artıq bir il ötür. Lakin “dəmir yumruq” əməliyyatı ilə keçirilən İkinci Qarabağ savaşı Azərbaycan tarixinə şanlı səhifələr yazdı. Dünya xəritəsində kiçik bir yeri əhatə edən Azərbaycan dövləti Vətən müharibəsində bütün bəşəriyyətə səs salaraq öz gücünü göstərdi.

O güc ki, heç bir beynəlxalq təşkilat tərəfindən, heç bir bəyanat və danışıqlarla öz həllini tapa bilmirdi. 44 günün tamamında Azərbaycan öz həqiqətlərini dünya birliyinə çatdırdı. Göstərdi ki, necə qüdrətli dövlətimiz, necə əzmkar, vətənpərvər, igid xalqımız var imiş. Torpaqlarımızdan ayrı qaldığımız 30 ilin küdurəti, nisgili, ağrısı-acısı vulkan olub 44 gündə püskürdü və bundan çıxan od-alov düşməni yandırdı.

Ötən il bu vaxtlar qüdrətli Azərbaycan dövləti öz əzəli-əbədi torpaqlarını işğaldan azad etmək üçün əks-hücum tədbirlərinə başladı. Biz öz əzəli-əbədi torpaqlarımız, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağımız uğrunda müharibə etdik. Lakin daha əvvəl 30 ilə yaxın müddət ərzində sülh danışıqları apararaq, Qarabağ münaqişəsinin dinc yolla həll olunacağına ümid bəsləyirdik. Ümummilli Lider Heydər Əliyev, Prezident İlham Əliyev dəfələrlə danışıqlar aparmış, beynəlxalq konfranslarda çıxışlar etmiş, Dağlıq Qarabağın ədalətli həlli üçün dünya birliyinə çağırışlar etmişdilər. Lakin bütün danışıqlara əhəmiyyət verilməmiş, BMT tərəfindən qəbul olunmuş 4 qətnamə kağız üzərində qalmış, heç bir nəticə hasil olmamışdır.

Aprel döyüşlərindən 4 il sonra 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində şiddətli döyüşlər baş verdi. Belə ki, Ermənistan ordusu artilleriya, iriçaplı silahlar və minaatanlardan istifadə etməklə Tovuz rayonu istiqamətindəki mövqelərimizə hücum etdi. Azərbaycanın qüdrətli ordusu tərəfindən hücumun qarşısı alındı və işğalçılara ağır zərbələr endirildi. Həmin döyüşlər zamanı general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev də daxil olmaqla, böyük şücaət göstərən 12 hərbçimiz şəhidlik zirvəsinə yüksəldi. Bu, bir daha sübut etdi ki, qüdrətli ordumuzun yüksək rütbəli zabitləri əsgərlərlə çiyin-çiyinə döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirirlər. 5 günlük Tovuz döyüşləri Azərbaycanın uzun illər işğal altında olan torpaqlarının azad olunmasına yol açaraq qığılcım rolunu oynadı.

Ermənistanın ölkəmizə qarşı 2020-ci il 27 sentyabrdan başlayan növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycanın Silahlı Qüvvələrinin Ali Baş Komandanının rəhbərliyi ilə işğal altında olan torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsi başladı. Bu, müasir dünya tarixinə qızıl hərflərlə yazılacaq vətənin ərazi bütövlüyü uğrunda savaşı idi.

28 sentyabr 2020-ci ildə Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəcamı ilə ölkədə qismən səfərbərlik elan olundu. Ehtiyatda olan hərbi qulluqçular, o cümlədən könüllü olaraq ordu sıralarına yazılmış gənclər döyüşlərə cəlb olundu.

Qələbəmizin qazanılmasında vətənə canını fəda edən şəhidlərimizdən, öz sağlamlıqlarını qurban verən qazilərimizdən, müharibənin dəhşətləri içərisində böyük zədə alan veteranlarımızdan əlavə bu cür mərd oğulları yetişdirən valideynlərin, heç nəyə baxmadan onları qürurla cəbhəyə yola salan mərd xanımların da böyük rolu var idi. Mən bir neçə müharibə iştirakçısının xanımı ilə əlaqə saxladıqda ortaq bir məqama şahid oldum. Biz yoldaşlarımızı müharibəyə fəxrlə yola saldıq, onların ardınca ağlamadıq, mərd dayandıq, başımızı uca tutduq, çünki biz möhkəm olmalı idik ki, onlar güc toplayıb düşmənə daha ağır zərbələr endirə bilsinlər. Biz möhkəm olmalı idik ki, övladlarımız atalarının necə bir qəhrəman olduqlarını dərk edə bilsinlər.

Mən yoldaşımı cəbhəyə yola salan ilk gündən azyaşlı övladıma “sənin atan qəhrəmandır, düşmənləri bizim torpaqlarımızdan qovmağa gedir” söyləyirdim. Qızım balaca ürəyi ilə çox sevinirdi ki, atası düşmənlə savaşa gedir. Lakin onun üçün çox darıxırdı. Əgər biz xanımlar da göz yaşı töksəydik, kim onlara təsəlli verəcəkdi?! Döyüşçü xanımı olmaq nə qədər çətin olsa da, eyni zamanda, qürurvericidir. Həmin ərəfələrdə keçirilən qarışıq hissləri sözlə ifadə etmək qeyri-mümkündür. Hər səhəri ümidlə açmaq arzusu, hər gecə yuxuların ərşə çəkilməsi, bir neçə gün cəbhə ilə əlaqə saxlaya bilmədikdə bütün mümkün ola biləcəklərin bir anda ard-arda xəyalında canlanması və ürəyindəki narahatlığı heç kimə büruzə verməmək çox ağırdır.

Bütün bunlar yalnız 44 gündə deyil, müharibə bitdikdən sonra döyüşçülərimiz geri qayıdana qədər də yaşandı. Bir an belə nigarançılıqdan qurtula bilmirdin: kaş ki bütün mərd oğullarımız şanlı qələbə ilə nəticələnən müharibədən sağ-salamat geri qayıdaydı, kaş ki heç bir uşaq atasız, heç bir valideyn övladsız, heç bir bacı qardaşsız, heç bir xanım yoldaşsız qalmayaydı...

Yoldaşım Ağayev İlkin Elman oğlu Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etdi. Cəbrayılda olarkən döyüş yoldaşları ilə birlikdə tank əleyhinə minaatanın dalğasına tuş gəldi. 44 gün ərzində hər an ölümlə üz-üzə qalsalar belə, qorxmadılar, çəkinmədilər. Onları yandıran gözləri önündə faciəli şəkildə şəhid olan döyüş yoldaşları idi. İgid qardaşlarının qanının yerdə qalmamaları üçün ölümə gedirdilər. Bir il keçməsinə baxmayaraq, hələ də bu barədə söhbət açılarkən müharibə iştirakçılarının halı dəyişir, gözləri yaşarır. Təkcə ona görə yox ki, müharibədə dəhşət içində döyüşdülər, ağrılar, acılar çəkdilər, yaralandılar, böyük fiziki zərbə aldılar, həm də ona görə ki, döyüş yoldaşlarının dəhşətli ölümünə şahid oldular.

Bizim qəhrəmanımız Vətən müharibəsi barədə söz açanda gördüklərinin filmlərdə çəkilənlərdən qat-qat dəhşətli olduğunu deyir. Təkcə Şuşa uğrunda gedən döyüşlər nəinki bizimkiləri, bütün dünyanı heyrətə gətirmişdi. Hərbçilərimiz sıldırım qayalara yüngül silahlarla çıxmış, düşmənlə əlbəyaxa döyüşmüş, şəhid və yaralı yoldaşlarını özləri ilə daşımışdılar.

44 gün ərzində döyüş meydanında qazanılan şanlı qələbəmizlə yanaşı, Azərbaycan xalqı informasiya cəbhəsində də üstünlüyü əlinə aldı. Xalqımız gerçəkləri dünyaya çatdırmaq üçün sosial şəbəkələrdə geniş-miqyaslı informasiya müharibəsində də qalib oldu. Bu qalibiyyətin başında da Ali Baş Komandan dururdu. İlham Əliyevin müzəffər ordumuzun uğurları ilə eyni vaxtda informasiya siyasətinin də başına keçərək Azərbaycanın haqq səsini dünya birliyinə və mediasına çatdırdı.

İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı Zəfər salnaməsi kimi yadda qalacaq. Artıq balalarımız bu şanlı tarixi dərsliklərdən öyrənəcəklər. Lakin qan yaddaşımızı da unutmaq olmaz.

44 gün ərzində xalqımız yüksək səviyyədə birlik nümayiş etdirdi. Ön cəbhədə hərbçilərimizin şücaəti, ordumuzun rəşadəti, arxa cəbhədə mülki insanlarımız, bütövlükdə isə xalqımızın həmrəyliyi nəticəsində qələbə çaldıq. Bir daha dünyaya sübut etdik ki, bu torpaqlar əzəli və əbədi Azərbaycan torpaqları olmuşdur, “Dəmir yumruq” əməliyyatı göstərdi ki, Qarabağ Azərbaycandır!

***Nuridə ƏLİZADƏ, hüquqşünas***



# Erməni faşizminin qanlı izləri

## Azərbaycan bu beynəlxalq bəlanın da başını əzdi

2020-ci ilin payızı idi... İkinci Qarabağ müharibəsi davam edirdi. Azərbaycanın mərd övladları cəbhədə işğalçı Ermənistanın silahlı qüvvələrinə qarşı döyüşürdü. Hər bir azərbaycanlı intizarla, həyəcanla döyüş meydanlarından gələn xəbərləri gözləyirdi. Hər bir azərbaycanlının qəlbi igid döyüşçülərimizlə döyünürdü. Və elə həmin günlərin birində - 2020-ci ilin 4 oktyabrında səhər saat 10 radələrində ermənilərin atdığı raketlər Azərbaycanın ikinci ən böyük şəhərində sakinlərin yaşadığı ikimərtəbəli binaya və fərdi yaşayış evlərinə düşdü.

### Ermənistan silahlı qüvvələrinin Gəncəyə ilk raket hücumu...

Məkrli Ermənistan yenə də bütün beynəlxalq qanunları və insani duyğuları heçə saydı. Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri OTR-21 TOÇKA ballistik raketindən vuruldu. Azərbaycan tərəfi hücuma görə məsuliyyəti Ermənistanın daşıdığını bildirdi. Ermənistan tərəfi isə ittihamlardan qaçmağa çalışdı. Hücuma görə məsuliyyəti rəsmi olaraq qondarma “Dağlıq Qarabağ Respublikası” rəsmiləri öz üzərinə götürdülər. Ermənilər bu dəfə də qəddar əməllərini örtbasdır etməyə çalışaraq hədəfin mülki insanlar yox, şəhərdə olan hərbi təyinatlı binalar olduğunu bildirdilər. Azərbaycan tərəfi bu bəhanəni faktlarla puça çıxararaq Gəncədə, ümumiyyətlə, hərbi təyinatlı binaların olmadığını diqqətə çatdırdı. Hava limanının direktoru, həmçinin hadisə yerində olan rus jurnalisti xəbərin doğru olmadığını açıqladı. Bütün dünyaya məlum oldu ki, ümumiyyətlə, COVID-19 pandemiyasına görə həmin ilin martından çalışmayan hava limanının vurulması yalandır. Düşmən tərəfindən Gəncənin bombalanması nəticəsində 1 mülki şəxs şəhid oldu, 32 mülki şəxs yaralandı. Yaşayış evləri ilə yanaşı, mülki infrastruktura, qədim tarixi tikililərə ziyan dəydi.

Bu faciəli hadisədən sonra Azərbaycanın Baş prokurorluğu bəyanat yaydı. Bəyanatda bildirildi ki, ilkin araşdırma ilə qeyd olunan fakt üzrə qondarma “Dağlıq Qarabağ Respublikasının prezidenti” Arayik Arutyunyan tərəfindən Cenevrə konvensiyasının tələbləri birbaşa pozularaq dinc əhalini qəsdən öldürmə, insanlar arasında vahimə yaradılmasına yönələn hərəkətlər etməsinə kifayət qədər sübutlar toplanıb: “Buna görə də Arayik Arutyunyanın barəsində Azərbaycan Cinayət Məcəlləsinin 100.1, 100.2 (Təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.1, 116.0.6, 116.0.7, 116.0.8-1 (Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 117.2 (Silahlı münaqişə zamanı cinayətkar əmr vermə), 120.2.1, 120.2.4, 120.2.12 (Qəsdən adam öldürmə), 186.3 (Əmlakı qəsdən məhv etmə), 214.2.1, 214.2.3 (Terrorçuluq), 218.3 (Cinayətkar birlik (təşkilat) yaratma), 279.3-cü (Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) maddələri ilə cinayət işi başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb”.

Bu, Ermənistanın İkinci Qarabağ müharibəsinin getdiyi dövrdə Qarabağ bölgəsindən kənarda etdiyi ilk hücum idi. Və çox təəssüf ki, sonuncu da olmadı...

Qədim Gəncə ikinci dəfə oktyabrın 5-də Ermənistan silahlı qüvvələrinin hücumuna məruz qaldı. Ermənistan ərazisindən atılan raket Gəncənin “Grand Qafqaz” Ticarət Kompleksinə düşdü. Hücum nəticəsində 3 mülki şəxs müxtəlif dərəcəli xəsarətlər aldı.

Oktyabrın 5-də səhər saatlarından etibarən Beyləqan rayonu da Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriyadan atəşə tutuldu.

### Gecə öz evində raket hücumuna məruz qalan dinc sakinlər arasında qadınlar və uşaqlar da oldu

Gəncəyə Ermənistan silahlı qüvvələrinin üçüncü hücumu oktyabrın 8-də oldu. Bu, gecə saatlarında Gəncəyə endirilən raket zərbəsi idi. Bu dəfə həlak olan və yaralananlar olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi.

Oktyabrın 9-da Moskvada Rusiya, Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında Dağlıq Qarabağ məsələsi ilə bağlı üçtərəfli danışıqlar başladı. Müzakirələrdə Sergey Lavrov, Ceyhun Bayramov və Zohrab Mnatsakanyan iştirak etdi. Görüş Rusiya Xarici İşlər Nazirliyinin “Qəbullar Evində” baş tutdu. Danışıqların nəticələrinə əsasən, birgə bəyanat elan olundu. Bəyanatda bildirildi ki, Rusiya Prezidenti Vladimir Putinin müraciətinə cavab olaraq və Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın razılaşmasına əsasən: “2020-ci ilin 10 oktyabr tarixi, saat 12:00-dan etibarən humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun meyarlarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunur. ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə tənzimlənmənin əsas prinsipləri əsasında münaqişənin tezliklə sülh yolu ilə həlli məqsədilə substantiv danışıqlara başlaması və digər məsələlərdə tərəflər razılığa gəldilər.

Ancaq işğalçı Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, həmçinin 10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozdu və Azərbaycanın dinc əhalisini qəsdən hədəfə aldı. Düşmənin silahlı qüvvələri oktyabrın 11-də gecə saat 02 radələrində cəbhə zonasından kənarda yerləşən Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binasını raket atəşinə tutdu. Azərbaycan Müdafiə Nazirliyi Ermənistanın Berd rayonunda yerləşən erməni silahlı qüvvələrinin Gəncəni “Skad” ballistik raketlərindən atəşə tutduğunu bəyan etdi.

Bu, Ermənistan silahlı qüvvələrinin Gəncəyə dördüncü hücumu oldu. Dinc əhalinin yaşadığı binaya tuşlanan raket onu yerləyeksan etdi. Axtarış və xilasetmə komandaları qısa müddət sonra hadisə yerinə yetişdi.

Raket hücumu şəhərdəki infrastruktura mühüm zərər vurdu. Ümumilikdə 31 mənzil tamamilə dağıdıldı, hadisə yerində və onun yaxınlığındakı obyektlərə, avtomobillərə ciddi ziyan dəydi. Hücumdan ümumilikdə 205 nəfərin yaşadığı 95 mənzil zərər gördü. Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə dördüncü hücumu nəticəsində 10 nəfər həlak oldu, 40 nəfər yaralandı. Qətlə yetirilən mülkü şəxslər arasında qadınlar və uşaqlar da var idi.

Azərbaycan tərəf cavabını gecikdirmədi, amma yenə də düşmən tərəf olsa belə, əhali və onun yaşayış məskənlərinə atəş açmadı. Oktyabrın 14-də Azərbaycan bildirdi ki, Gəncəyə hücuma cavab olaraq, Azərbaycan Silahlı Qüvvələri Kəlbəcər bölgəsində yerləşən 3 R-17 Elbrus taktiki raketini məhv etdi. Həmin raketlərin Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini hədəfə aldığı açıqlandı. 3 gün sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan tərəfinin Gəncəyə dördüncü hücumuna cavab olaraq Füzuli şəhərini və onun bir çox kəndini işğaldan azad etdiyini bildirdi.

Oktyabrın 17-də, təxminən yerli vaxtla saat 01:00-da erməni silahlı qüvvələri yenidən “Skad” ballistik raketləri ilə Gəncəni atəşə tutdular. Azərbaycanın rəsmi dairələri bu barədə məlumat verdilər. Yerli səlahiyyətli şəxslər 20 evin dağıdıldığını, xeyli sayda mülki şəxsin dağıntıların altında qaldığını bildirdi. Hücum nəticəsində 15 nəfər həlak oldu, 55 nəfər yaralandı.

Bu dəhşətli hadisə barədə məlumat verən jurnalistlər bildirdilər ki, şəhərdə 3 güclü partlayış səsi eşidilib. “RİA Novosti” Agentliyinin müxbiri vurğuladı ki, ballistik raketlər əhalinin sıx yaşadığı əraziyə düşüb. Nəticədə xeyli sayda müxtəlif yaşayış evlərinə və digər tikililərə ziyan dəyib. İlk raket şəhər binasından cəmi 2 km uzaqlığa, ikincisi şəhərin qərbində olan Kəpəz bölgəsinə düşüb. “Dojd” kanalının müxbiri Vasili Polonski açıqladı ki, raketlərin düşdüyü yerlərin yaxınlığında heç bir hərbi, eləcə də hansısa vacib obyektlər yoxdur.

Gəncənin 11 və 17 oktyabrda “Skad” hücumlarına məruz qalması barədə ANAMA da məlumat verdi.

Erməni təcavüzkarlarının Gəncə hücumları nəticəsində ümumilikdə 26 nəfər şəhid oldu, 175 nəfər yaralandı. Şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəydi.

Ermənistanın mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da oldu. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bu hücumu “Azərbaycan xalqına qarşı Xocalı soyqırımından bəri şahidi olduğumuz bir soyqırım aktı” adlandırdı.

### Dinc əhalinin qatillərinin kim olduğunu bütün dünya bilirdi...

Ermənistanın məsuliyyətdən yayınmaq cəhdləri əbəs idi. Qatillərin kimlər olduğu yalnız Azərbaycan dövlətinə və Azərbaycan xalqına deyil, bütün dünyaya bəlli idi. Raket hücumlarına görə, BMT, Avropa İttifaqı və Türkiyə Ermənistanı qınadı.

Ancaq beynəlxalq aləmdə yenidən layiq olduğu cəzanı almaması Ermənistanın əl-qolunu açdı, çəkinmədən hərbi cinayətlər törətdi. Ermənistan tərəfi humanitar atəşkəs razılığından sonra dinc insanları və şəhərləri atəşə tutmaqda davam etdi. Ermənistan silahlı qüvvələri bölmələrinin 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə raket hücumu nəticəsində 5 nəfər öldü, 13 nəfər yaralandı.

Oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan “Smerç” tipli əməliyyat-taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik “claster” tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 22 nəfər həlak oldu, 8-i uşaq, 15-i qadın olmaqla, 60 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evinə və 22 nəqliyyat vasitəsinə ziyan dəydi.

Ermənistanın 2020-ci ilin payızında Azərbaycanın döyüş bölgələrindən kənarda yerləşən ərazilərimizi, dinc əhalini amansızlıqla atəşə tutmasından bir il ötdü. Gəncədə, Bərdədə, Beyləqanda, Tərtərdə və digər yaşayış məskənlərimizdə qətlə yetirilən, yaralanaraq sağlamlığını itirən azərbaycanlıların dərdi hələ də bu xalqın qəlbindədir. Təəssüf ki, Ermənistan hələ də bu terror hadisələrinə görə beynəlxaq hüquq nöqteyi-nəzərindən cəzasını almayıb.

***Zöhrə FƏRƏCOVA, “Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## “Ağıllı kənd” sakinləri biznes təlimlərinə cəlb olunub

*Zəngilan rayonunun Ağalı kəndində “ağıllı kənd” layihəsi çərçivəsində mikro biznesin yaradılması üçün kənd sakinlərinə dəstək göstəriləcək.*

Bu məqsədlə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və Zəngilan Rayon İcra Hakimiyyəti birgə əməkdaşlıq edir. Əməkdaşlıq çərçivəsində işğaldan azad edilmiş Zəngilan rayonunun sakinlərinə biznes fəaliyyətinə başlanması və məşğulluğun təmin edilməsi üçün dəstək göstəriləcək. Əməkdaşlıq çərçivəsində ilkin mərhələdə 22 nəfər Zəngilan sakini özünüməşğulluq proqramına cəlb edilərək onlar üçün kiçik biznes sahələri yaradılacaq. Proqrama cəlb olunan şəxslər təlimləri və qiymətləndirmə mərhələsini uğurla başa vurduqdan sonra Dövlət Məşğulluq Agentliyi tərəfindən fəaliyyət sahələrinə uyğun olaraq müvafiq avadanlıqlarla təmin olunacaqlar.

Artıq sakinlərin məşğul olacağı fəaliyyət sahələrinin və bu istiqamətdə ehtiyaclarının müəyyən olunması üçün KOBİA və Aqrar Xidmətlər Agentliyi tərəfindən sakinlərlə görüşlər keçirilib. Müzakirələrin nəticəsi olaraq, avtoservis, inşaat, məişət avadanlıqları ustası, dərzi, bərbər, gözəllik salonu, un məmulatları istehsalı, ticarət və s. sahələr müəyyənləşdirilib.

Noyabrın 1-dən biznes təlimlərinə başlanılıb. Təlimlərdə iştirakçılar KOBİA-nın təlimçiləri tərəfindən biznes fəaliyyəti üçün zəruri biliklər, dəstək mexanizmləri barədə məlumatlandırılır, onları maraqlandıran suallar cavablandırılır.

Təlimlər noyabr ayının sonunadək davam edəcək.

## Hesablama Palatası Dünya Bankının missiyası çərçivəsində keçirilmiş onlayn görüşdə iştirak edib

*Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov və Səmərəlilik auditi şöbəsinin müdiri Zaur Vəliyev, Beynəlxalq fəaliyyət, təlim və metodoloji təminat şöbəsinin sektor müdiri Fərqanə Əliyeva ölkədə Orta Müddətli Xərclər Çərçivəsinin Potensialının Gücləndirilməsi (OMXÇ PG) Proqramının həyata keçirilməsi məqsədilə Dünya Bankı tərəfindən təşkil edilmiş onlayn toplantıda iştirak edib.*

Toplantıya Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri ilə yanaşı, İsveçrə Konfederasiyasının İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Təhsil Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, o cümlədən digər əlaqəli qurumların nümayəndələri qatılıb. Azərbaycanda Orta Müddətli Büdcə Planlaşdırılmasının Gücləndirilməsi məsələsinin müzakirəsi ilə əlaqədar keçirilmiş toplantı Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Mayklın açılış nitqi ilə başlayıb. O, Orta Müddətli Xərclər Çərçivəsinin tətbiqinin əhəmiyyəti və yaxın gələcəkdə həyata keçiriləcək fəaliyyətlərdən bəhs edib. Daha sonra iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova və Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov çıxış edərək, OMXÇ üzrə müvafiq fikirlərini bölüşüblər. Görüşün davamında dövlət idarəçiliyi üzrə baş mütəxəssis və tapşırıq qrupu rəhbəri İan Haukesvors proqramın xüsusiyyətləri barədə məlumat verərək, OMXÇ PG Proqramının 4 istiqaməti üzrə məsul olan xarici ekspertləri təqdim edib, missiya gündəliyi və işin təşkili barədə məlumat verib. Onlayn toplantının sonunda proqramın başlanğıc mərhələsi - ilkin qiymətləndirmə metodologiyası, məlumatların toplanması və sairə məsələlər üzrə müzakirələr aparılıb.

## Regionların tarazlı inkişaf siyasəti davam edir



## Qarabağın dirçəlişi digər bölgələrdə həyata keçirilən layihələri təxirə salmır

*Prezident İlham Əliyevin son vaxtlar bölgələrə etdiyi səfərlər yalnız işğaldan azad olunmuş əraziləri yox, digər rayonları da əhatə edir. Bu səfərlər çərçivəsində ənənəyə uyğun olaraq sosial və istehsalyönlü obyektlərin açılışı və təməlqoyma mərasimləri keçirilir. Dövlət başçısı eyni zamanda müxtəlif sahələrdə görülən işlərlə tanış olur, tövsiyələrini verir, gələcək planlardan danışır, yerli ictimaiyyətin nümayəndələri ilə ideyalarını bölüşür.*

Abadlaşan şəhərlər və kəndlər, yeni salınan yollar və körpülər ard-ardınca təhvil verilən elektrik yarımstansiyaları və s. ölkədə aparılan quruculuq işlərinin miqyasını, infrastruktur layihələrinin əhatə dairəsinin genişliyini, aparılan iqtisadi islahatların səmərəsini aşkar görməyə imkan yaradır. Həqiqətən, müharibədən qalib çıxan ölkədə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafının davam etdirilməsi, insanların öz doğma yurdlarına qayıtmasını təmin edən zəruri addımların atılması sıradan faktlar deyil. Biz iqtisadiyyatın və sosial həyatın hansı sahəsinə nəzər salsaq, məğlubiyyətlərin bataqlığında təskinlik axtaran işğalçı Ermənistanla müqayisədə inanılmaz yeniliklərin şahidi oluruq.

Bu baxımdan Prezident İlham Əliyevin səfərlərində diqqətçəkən məqamlardan biri kənd təsərrüfatının yüksək texnologiyalar əsasında inkişafı istiqamətində atdığı addımlarla bağlıdır. Biz Qarabağda kənd təsərrüfatının inkişafı üçün həyata keçirilən tədbirlərin dünyanın ən mütərəqqi və müasir təcrübəsinə söykənməsini görürük. Kim inana bilərdi ki, zəfərdən az sonra işğaldan azad edilmiş ərazilərdə “ağıllı” kənd təsərrüfatının qurulmasına start veriləcək, “ağıllı” kənd və şəhərlər salınacaq, müasir təsərrüfatların yaradılmasına başlanacaq. Maraqlısı odur ki, dünyada “ağıllı” şəhər və kəndlərin sayı elə çox deyil. Bu günə mövcud olan belə yaşayış məntəqələri demək olar ki, pilot layihələr səviyyəsində salınmışdır. Çünki belə layihələr böyük iradə və maliyyə resursları tələb edir ki, bu da hər dövlətdə yoxdur. Elə ona görə də İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə “ağıllı” kənd, şəhər və kənd təsərrüfatı layihələrinin icrasına qərar verməsi postmüharibə dövrünü yaşayan ölkələrin tarixində misli görünməmiş bir işdir. Bu səbəbdən bütün dünya ictimaiyyətinin diqqəti Azərbaycana yönəlir ki, bu da bir daha postmüharibə dövründə qısa vaxtda görülən işlərin, atılan addımların yüksək texnologiyalara və müasir dünya təcrübəsinə söykənən islahatların nə dərəcədə möhtəşəm və heyrətamiz olduğunu göstərir.

Üstəlik, nəzərəçarpan yeniliklər yalnız işğaldan azad edilmiş ərazilərdə yox, həmçinin digər bölgələrdə də geniş tətbiq edilir. Prezident İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın noyabrın 1-də açılışında iştirak etdikləri Şamaxı Üzüm Tingçilik Mərkəzi müasir dünya təcrübəsinin uğurları və yeni texnologiyaların sintezinin aqrar sektora tətbiqini nümayiş etdirən ən uğurlu layihələrdəndir. Bu mərkəz ölkənin üzümçülük təsərrüfatlarını müxtəlif iqlim şəraitinə adaptasiya qabiliyyətli, fillokseraya davamlı calaq-üzüm əkin materialı ilə təmin etməkdə vacib rol oynayacaq. Yeri gəlmişkən qeyd edək ki, bu gün ölkədə sürətlə yeni üzüm və digər meyvə bağları salınır. Amma bu işdə tinglərin hamısı demək olar ki, xarici ölkələrdən gətirilir. Həmin qələmlər isə bəzən üz ağartmır, xərclər də ki, qədərindən çox olur. Məsələn, bir hektar intensiv alma bağının salınması fermerlərə 20 min manatdan baha başa gəlir. Bu pulu xərclədikdən sonra bağ bəhərə düşənədək 3-4 il yenə də pul xərcləmək lazım gəlir. Qarpız əkənlər deyirlər ki, xaricdən gətirilən toxumdan yetişən qarpızdan toxum götürüb əkmək mümkün deyil. Ona görə də hər il yeni toxum almaq lazım gəlir.

Şamaxı Tingçilik Mərkəzinin illik istehsal gücü 1 milyon ədəd ting olacaq. Mərkəzdə 4-ü yerli - Mədrəsə, Bayanşirə, Məlayi, Xindoqni olmaqla, 10 texniki və bir yerli Ağadayı sortu olmaqla, 15 süfrə üzüm sortlarının tingləri istehsal olunacaq. Burada həmçinin 6 xarici sort və hibrid üzrə fillokserayaya davamlı anaclıqlar da yetişdiriləcək. Bütün bunların sayəsində üzüm tinglərinə olan tələbat yerli istehsal hesabına ödəniləcək, xaricə valyuta axınının qarşısı alınacaq. Eyni zamanda istehsal olunan yerli tinglərin region və Mərkəzi Asiya ölkələrinə ixracı da nəzərdə tutulur ki, bu da Azərbaycan fermerlərinə toxumçuluq məhsulları ilə dünya bazarına çıxmağa imkan yaradacaq.

Mərkəzdə aqrar mühəndislik, budama, şpalerlərin çəkilməsi və digər istiqamətlər üzrə qısamüddətli və peşəyönümlü kursların təşkili, xəstəlik və zərərvericilərlə mübarizədə elmi-praktiki dəstəyin göstərilməsi, tarla məktəblərinin yaradılması, sort xüsusiyyətlərinin öyrədilməsi də nəzərdə tutulur. Bununla yanaşı, yerli sortlardan ibarət gen banklarının formalaşdırılması, invitro şəraitində yetişdirilən tinglərdən ibarət bağların yaradılması, nümunə şərabların istehsalı və təşviqi, şərab kolleksiyalarının formalaşdırılması da mərkəzin fəaliyyət istiqamətlərinə daxildir. Faktiki olaraq bu müasir təsərrüfat üzümçülüklə məşğul olan fermerləri yeni tinglərlə təmin etməkdən başqa, həm də müasir dünya təcrübəsi və vacib biliklərlə təmin edən elmi mərkəz kimi ölkədə üzümçülüyün inkişafında vacib rol oynayacaq.

***Bahadur İMANQULİYEV, “Azərbaycan”***

## Daha iki şəhid ailəsinin məşğulluq problemi həll edilib

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin rəhbər şəxsləri Vətən müharibəsinin şəhidləri Telman Kəlbiyev və Ayxan Haqverdiyevin ailələrində olublar.*

Görüş zamanı agentliyin sədri Mustafa Abbasbəyli şəhid ailələrinə dəstək tədbirlərinin davam etdiyini vurğulayıb. O, bu tədbirlər çərçivəsində şəhid ailələrinin aktiv məşğulluq proqramlarına cəlb olunması işlərinin aparıldığını da qeyd edib.

Bildirilib ki, şəhid Telman Kəlbiyevin bacısı Elnarə Rzayeva sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi proqramı çərçivəsində ötən ay “Kale Solution” MMC-də işlə təmin edilib. Digər şəhid Ayxan Haqverdiyevin atası Akif Haqverdiyev isə istəyinə əsasən özünüməşğulluq proqramına cəlb olunub və proqram çərçivəsində verilmiş aktivlər hesabına heyvandarlıq zərfi üzrə kiçik ailə təsərrüfatını yaradıb.

Hər iki ailənin sosial vəziyyətlərinin bundan sonra da diqqətdə saxlanacağı qeyd edilib.

## Basqal qəsəbəsində içməli və tullantı su layihəsinin icrasına başlanılıb

*Azərbaycanın unikal yaşayış məntəqələrindən olan, tarixi turizm potensialına malik İsmayıllı rayonunun Basqal qəsəbəsində içməli və tullantı su layihəsinin icrasına başlanılıb.*

Qəsəbənin qədim hissəsini əhatə edən Basqal Dövlət Tarix Qoruğu ərazisində yeni içməli su təchizatı sistemləri yaradılır, qəsəbənin kanalizasiya sistemləri müasir şəkildə yenidən qurulur.

Basqal Dövlət Tarix Qoruğunun su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icra vəziyyəti “Azərsu”nun, İsmayıllı Rayon İcra Hakimiyyətinin, Dövlət Turizm Agentliyinin, Basqal Dövlət Tarix Qoruğunun rəhbərliyinin iştirakı ilə yerində müzakirə olunub və tikinti işlərinə baxış keçirilib. Layihənin ilkin mərhələsi üzrə tikintinin vaxtında və keyfiyyətlə başa çatdırılması üçün işlərin intensiv qaydada icra olunması məqsədilə lazımi göstərişlər verilib.

Orta əsr şəhər mədəniyyətinin elementlərini özündə əks etdirən Basqal qəsəbəsində qədim içməli su təchizatı və kanalizasiya sistemləri mövcud olub. Qədim bulaqlar, kanalizasiya şəbəkəsi və kürəbəndlər (kanalizasiya quyuları) XIII əsrdən indiyədək istismar edilib. Əsrlər boyu kənd sakinləri içməli suyu bulaqdan daşıyıblar. Bəzi sakinlər isə bulaqlardan primitiv qaydada çəkilmiş su xətlərindən istifadə ediblər.

Son dövrlər qəsəbənin genişlənməsi və turizmin əhəmiyyətinin artması nəzərə alınaraq qəsəbənin memarlıq üslubu gözlənilməklə içməli və tullantı su sistemlərinin yenidən qurulmasına qərar verilib. “Azərsu” tərəfindən dövlət investisiyası hesabına həyata keçirilən layihəyə əsasən, qəsəbəyə içməli su Təndirəki mənbəyindən veriləcək. Bu məqsədlə suqəbuledici qurğu yenidən qurulur, mənbədən qoruq ərazisinə polad borularla magistral su kəməri çəkilir. Qəsəbəyə verilən suyun dayanıqlılığını təmin etmək üçün həcmi 300 kubmetr olan su anbarı da inşa olunur. İlkin mərhələdə qəsəbədə 5,7 kilometr uzunluğunda içməli su, 6,7 kilometr kanalizasiya şəbəkəsi yaradılacaq, hər bir ünvana birləşmə verilərək sayğaclar quraşdırılacaq. Qəsəbə ərazisində yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 650 kubmetr olan modul tipli tullantı sutəmizləyici qurğu və 2,1 kilometr uzunluğunda kollektor da inşa ediləcək. Birinci mərhələ üzrə işlərin 2022-ci ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Qeyd edək ki, qoruq ərazisində küçələr dar və memarlıq abidələrinin çox olması nəzərə alınaraq tikinti işləri mürəkkəb şəraitdə aparılır. Ərazinin memarlıq üslubuna xələl gətirməmək məqsədilə kiçik qabaritli texnikalardan istifadə olunur.

## Qeyri-neft məhsullarının ixracı artır



*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) təqdim etdiyi “İxrac icmalı”nın 2021-ci il oktyabr sayına əsasən, 9 ay ərzində Azərbaycanın ixracı 14,6 milyard dollar, qeyri-neft sektoru üzrə 1,8 milyard dollar həcmində olmuşdur.*

Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 525,3 mln. dollar və ya 40,9 faiz artmışdır. Qeyri-neft ixracında meyvə-tərəvəz məhsulları 398,9 milyon dollar ilə əsas paya malik olmuşdur. Müvafiq dövr ərzində qeyri-neft ixracında pambıq iplik 3,3, qara metallar və onlardan hazırlanan məmulatlar 2,3, kimya sənayesi məhsulları 2,1, şəkər 2,1 dəfə, pambıq lifi 80,8 faiz, alüminium və ondan hazırlanan məmulatlarda isə 55,8 faiz artım qeydə alınmışdır.

2021-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (158,2 milyon dollar) birinci yerdədir. Bu siyahıda pambıq mahlıcı (149,5 milyon dollar) ikinci, pomidor (tomat) (128,2 milyon dollar) isə üçüncü yerdə qərar tutmuşdur. Digər yerləri tutan məhsullar aşağıdakı ardıcıllıqla sıralanmışdır: ilkin formalı polipropilen (86,9 milyon dollar), ilkin formalı polietilen (xüsusi kütləsi 0,94-dən az) (71,9 milyon dollar), meşə fındığı (55,9 milyon dollar), polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (51,4 milyon dollar), ilkin formalı polietilen (xüsusi kütləsi 0,94-dən çox) (50,4 milyon dollar), karbamid (49,9 milyon dollar), metanol (metil spirti) (48,6 milyon dollar).

İcmalda bu ilin 9 ayı ərzində ixracda birinci beşlikdə qərar tutan ölkələrin adı çəkilir: Rusiya Federasiyasına 586,5 milyon dollar, Türkiyəyə 455 milyon dollar, İsveçrəyə 174 milyon dollar, Gürcüstana 120,5 milyon dollar və ABŞ-a 54,8 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur. Digər yerləri müvafiq olaraq Ukrayna (36,2 milyon dollar), Braziliya (31,5 milyon dollar), Çin (27,4 milyon dollar), Belçika (26,4 milyon dollar), Qazaxıstan (26,1 milyon dollar) tutmuşdur.

Normallaşma prosesinin davam etdiyi dövrdə sentyabr ayı üzrə ümumi ixrac 1,7 milyard dollar təşkil etmişdir. Diqqətçəkən odur ki, qeyri-neft sektoru üzrə ixracda artım 75,2 faiz təşkil etməklə 224,7 milyon dollar həcmindədir. Bu ilin sentyabrında yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 34,5 faiz artaraq 46,2 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə isə 90 faiz artaraq 178,5 milyon dollar təşkil etmişdir.

2021-ci ilin sentyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (64,2 milyon dollar) birinci, Türkiyə ikinci (47,7 milyon dollar), İsveçrə üçüncü (19,2 milyon dollar) yerdədir. Həmin ay ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid (18,5 milyon dollar) birinci, qızıl (18,1 milyon dollar) ikinci və metanol (15,7 milyon dollar) üçüncüdür.

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar-sentyabr ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir. Qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunur: “MKT İstehsalat Kommersiya” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “Local Garden” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Baku Steel Company” MMC, “Sun Food” MMC, “P-Aqro” MMC, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, “RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD” MMC, Hidayətov Təyyar Hidayət oğlu, “Bulder 007 LTD” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısında isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda “Socar Polymer” MMC, “Azergold” QSC, “Azəralüminium” MMC-nin və digərlərinin adı çəkilir. 9 ay ərzində “Azərkosmos” ASC tərəfindən dünyanın 36 ölkəsinə 32,3 milyon ABŞ dolları dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

2021-ci ilin yanvar-sentyabr ayları ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə 9,6 milyon dollarla ABŞ, 7,2 milyon dollarla Fransa, 6,6 milyon dollarla Birləşmiş Krallıq, 3,7 milyon dollarla Malayziya və 1,3 milyon dollarla BƏƏ qərarlaşmışdır.

Onu da qeyd edək ki, yanvar-sentyabr ayları ərzində Azexport.az portalına 367,6 milyon dollar dəyərində ixrac sifarişləri daxil olmuşdur. Sentyabrda Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri 43,2 milyon ABŞ dolları həcmindədir. İcmalda qeyd edilir ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 30 sentyabr tarixinə kimi (57 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2,59 milyard dollara çatmışdır.

***B.İMANQULİYEV, “Azərbaycan”***

## “Qiymətli kağızların buraxılışı, Fond Birjasında listinq və Listinq Məsləhət Proqramı” mövzusunda təlim keçiriləcək

*Noyabrın 11-də Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK) və Bakı Fond Birjası tərəfindən yerli şirkətlər üçün “Qiymətli kağızların buraxılışı və Fond Birjasında listinq” mövzularında onlayn təlim keçiriləcək.*



Təlimdə Azərbaycan Respublikasının Mərkəzi Bankı, Bakı Fond Birjası, ABB İnvest İnvestisiya şirkəti və Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) əməkdaşları tərəfindən kapital bazarı ilə bağlı ümumi məlumat, qiymətli kağızların buraxılışı, onların birjada listinqə alınması proseduru və Listinq Məsləhət Proqramı ilə bağlı ətraflı məlumat veriləcəkdir. Tədbirin əsas məqsədi yerli şirkətlərə alternativ maliyyələşmə üsullarını təqdim etmək və bu istiqamətdə beynəlxalq təcrübəni bölüşməkdir.

Qeyd edək ki, Bakı Fond Birjası əməkdaşlıq etdiyi investisiya şirkətləri və Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK) ilə birlikdə kapital bazarı haqqında məlumatlılığın artırılması, yerli biznes mühitində qiymətli kağız buraxılışı təcrübəsinin aşılanması və fond birjasında listinqin təşviq edilməsi məqsədilə mütəmadi olaraq ödənişsiz təlimlər təşkil edir.

## “Yaşıl yem istehsalı kompleksi” layihəsinin təqdimatı olub

*Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə hidroponika üsulu ilə “Yaşıl yem istehsalı kompleksi” layihəsinin təqdimatı keçirilib.*

Fermerlər, müxtəlif rayonların Dövlət Aqrar İnkişaf Mərkəzlərinin əməkdaşlarının iştirakı ilə keçirilən təqdimat mərasimində yem konteyneri və aqro-robot qurğuları nümayiş olunub.

Təqdimat zamanı bildirilib ki, kənd təsərrüfatının heyvandarlıq sahəsində yemə olan tələbatın ödənilməsi məqsədilə bütün növ təsərrüfatlar üçün optimal olan yaşıl yem istehsalı qurğusu yaradılıb. Bu mobil konteynerler və stasionar komplekslər 7 gün (1 kq əkin materialı 5-9 kq yaşıl yem) müddətində toxumluq dəni yaşıl yemə çevirmək qabiliyyətinə malikdir. Hidroponika üsulu ilə hazırlanan yaşıl yemin tərkibi vitamin və bioloji aktiv maddələrlə zəngin hesab olunur. Təsərrüfatın ölçüsündən asılı olaraq konteynerdən gündəlik minimum 50 kq, maksimum 20 ton yaşıl yem əldə etmək mümkündür. Qeyd edək ki, heyvandarlıqda müstəqil surətdə yetişdirilmiş dənli və paxlalı bitkilərin toxumlarından alınan yaşıl yemin tətbiqinə keçid ət-süd məhsulları istehsalının həcminin, onun keyfiyyətinin yaxşılaşdırılması ilə eyni vaxtda artırılması üçün əlverişli üsuldur.

Avtomatlaşdırılmış hidropon yaşıl yem istehsalı kompleksinin təqdimatından sonra kənd təsərrüfatında suvarma, alaq otlarına qarşı mübarizə və məhsul yığımının avtomatlaşdırılması kimi funksional imkanları özündə cəmləşdirən aqro-robotlar nümayiş etdirilib.



Təqdimatı edilən avadanlıq və qurğuların aqrar sahənin inkişafına verəcəyi töhfədən bəhs olunub. Qeyd edilib ki, yaxın günlərdə mobil konteynerlərin ölkənin bir çox bölgələrində nümayişinin keçirilməsi nəzərdə tutulur.

# Avropa enerji böhranı qarşısındadır



## Dünya köhnə qlobal problemin yeni fəsadlarını yaşayır

Hazırda faktiki olaraq bütün dünya enerji böhranından əziyyət çəkir. Enerji resurslarının qiyməti artır və həm Avropa İttifaqında, həm Çində, həm də Cənubi Amerikada görünməmiş rəqəmlərə yüksəlir. Qarşıda isə qış mövsümü gəlir. Bəs yaxın aylarda vəziyyət necə olacaq?

Enerji təhlükəsizliyi və siyasəti sahəsində avropalı mütəxəssis Yan Mazaç hesab edir ki, belə davam etsə, bazarlar, yaxud tədarük uğrunda mübarizə diplomatik mübahisələrə çevrilə bilər. Bu məsələdə bir neçə nüans var. Bunlara koronavirus pandemiyasından sonra iqtisadiyyatın bərpası, yəni dünya üzrə enerji daşıyıcılarına tələbat artımı aiddir. Həmçinin ötən qışın sərtliyini və ehtiyatların tükənməsini, habelə enerji daşıyıcılarının qiymətinin Avropa ilə müqayisədə Asiyada artımını nəzərə almaq lazımdır. Buna görə ABŞ və Qətərdən olan təbii maye qazının tədarükçüləri daha çox qazanc əldə etmək üçün hazırda öz tankerlərini Asiyaya yönəldirlər. Nəticədə Avropa enerji daşıyıcılarına olan tələbatını ödəyə bilmir və istehsalçılar daha çox kömürdən istifadə edirlər. Məsələn, Almaniyanın karbohidrogen tullantıları 1990-cı ildən bəri maksimuma çatıb.

Enerji böhranı dövründə Aİ həm də iqlim böhranı ilə mübarizə aparır.

### Avropada qazın qiyməti ötən illə müqayisədə 6 dəfə artıb

Avropada təbii qazın qiyməti COVID-19-la bağlı ölkələrin lokdaundan çıxması fonunda kəskin artıb. Gündən-günə enerji böhranı dərinləşir. Avropada qazın qiyməti ötən illə müqayisədə 6 dəfə artmışdır və bu artım davam edir. Vəziyyətin yazadək dəyişəcəyi gözlənilmir.

Hökumətlər istehlakçıları müdafiə etmək üsulları axtarırlar. Bunlardan biri vergilərin azaldılmasıdır.

Qazın qiymətinin artımı bütün dünyada tələbatın artması ilə əlaqəlidir. Çünki bir çox ölkələrin iqtisadiyyatları bərpa yoluna çıxmışlar.

İctimaiyyətin bir qismi Rusiyanı enerji böhranının təqsirkarı hesab edir. Bildirilir ki, qaz tədarükçüsü kimi Moskva imzaladığı müqavilələri icra etsə də, bundan artığını vermək istəmir və buradan sual doğur: Bu, bilərəkdən edilir, yaxud sadəcə Rusiyanın özündə də tələbat artır?

"Yaşıl" iqtisadiyyata keçidə görə Rusiya da enerji daşıyıcıları bazarında yönümünü dəyişməlidir. Artıq indidən Moskva Çin və Afrika ölkələri ilə ticarətə daha çox diqqət ayırır. Afrika qitəsində elektrik enerjisindən istifadə etməyən yüz milyonlarla adam var. Beləliklə, Rusiyanın qarşısında böyük kommersiya imkanları açılır.

Avropada karbohidrogen tullantılarının azaldılmasına çalışıldığı bir vaxtda Afrikada ən vacib məsələ elektrik enerjisi əldə etməkdir və onlar üçün bunun kömürdən, yaxud qazdan alınacağı əhəmiyyətli deyil. İnsanlar sadəcə öz evlərində işıq və istilik istəyirlər. Avropada enerji effektivliyi, istiləşmə və enerji istifadəsindən digər səmərəli vasitələrə görə elektrik enerjisinin istifadəsi azalacaq. Asiya və Afrikada isə, əksinə, istifadə artacaq.

### Təbii qaz idxalı və ehtiyatlar

Avropa İttifaqı (Aİ) daha çox bloka daxil olmayan ölkələrin təbii qazından asılıdır. Aİ daxilində qaz istehsalı azalır. Avrostatın məlumatına görə, 2019-cu ildə Aİ ölkələri təxminən 90 faiz qaz almışdır. İttifaqda təbii qazın ən iri ixracatçısı Rusiyadır. Onun Aİ-də ixracda payı ötən il 43,4 faiz təşkil etmişdir. İkinci yerdə Norveçdir.

Bu il ekspertlər dəfələrlə Rusiyadan tədarük problemini müzakirə etmişlər. Bəziləri hesab edir ki, Moskva "Şimal axını-2" qaz kəmərini işə salmaq üçün qaz nəqlini bilərəkdən azaldır.

Aİ rəhbərliyini narahat edən daha bir problem ondan ibarətdir ki, bu il təbii qaz ehtiyatları 2020-ci illə müqayisədə daha azdır. Əgər ötən ilin oktyabrında bu, 95 faiz təşkil edirdisə, hazırda cəmi 75 faizdir. Çünki uzun sürən qış mövsümünə görə qaz ehtiyatları tükənmişdir.

Breygel Mərkəzinin elmi işçisi Simon Talyapyetra bununla bağlı deyir: "Demək olmaz ki, biz ilk növbədə istilik sistemləri planında qış mövsümünə yaxşı hazırlaşmışıq. Məhz bu narahatlıq qiymətlərin artmasına aparır. Bazarlarda qaz təklifinin qıtlığı proqnozlaşdırılır və nəticədə onun qiyməti artır".

### Avrozonada inflyasiya və Aİ-nin istehlak sistemində təbii qazın əhəmiyyəti

Təbii qazın qiymətinin artması Avrozonanın bütün 19 ölkəsində inflyasiyanın sürətlənməsinə gətirib çıxarmışdır. Bu, "Avrostat"ın son məlumatıdır.

Bildirilir ki, avro zonasında inflyasiya son 13 ildə maksimal göstəriciyə çatmışdır - 3,4 faiz. Bu, birbaşa enerji sektorunda qiymətlərin artması ilə (17,4 faiz) əlaqəlidir.

Xatırladaq ki, ötən ilin sentyabrında bu sektorda deflyasiya (-8,2 faiz) qeydə alınmışdı.

Təbii qaz Avropa İttifaqının 27 ölkəsində neft və neft məhsullarından sonra populyarlığına görə ikinci enerji daşıyıcısıdır. 2008-ci illə müqayisədə qazdan istifadə azalsa da, o, hələ də vacib enerji mənbəyi kimi qalmaqdadır.

Bəzi ekspertlər hesab edirlər ki, problemin bir hissəsi avropalıların mədən yanacağından asılılığıdır və bərpa olunan enerji mənbələrinin inkişafı bu problemi həll edə bilər. Həmçinin cəmiyyət yaşıl enerjidən daha geniş istifadəyə adaptasiya olunmalıdır.

### Zavodlar niyə bağlanır?

Avropada enerji böhranı hər gün güclənir və sənaye kritik nöqtəyə yaxınlaşır. "Bloomberg"in xəbərinə görə, bəzi müəssisələr artıq müvəqqəti olaraq bağlanır.

Agentlik qeyd edir ki, qış yaxınlaşdıqca avropalılar istilik sistemlərini işə salacaq və böhran güclənəcək. Nəticədə müəssisə rəhbərləri daha sərt qərarlar qəbul etmək məcburiyyətində qalacaq.

Almaniyadakı ammonium istehsalçısı "SKW Stickstoffwerke Piesteritz GmbH" bildirib ki, qazın qiymətinin artımını kompensasiya etmək üçün hasilatı 20 faiz azaldacaq. "Bu cür qiymətlərlə ammonium istehsal etməyin mənası yoxdur. Hökumət tədbir görməsə, istehsalat tamamilə dayanacaq", - deyə şirkətin icraçı direktoru Peter Sinqr vurğulayıb.

Bundan əlavə, bir müddət əvvəl gübrə istehsalçısı - "CF İndustries Holding" şirkəti Böyük Britaniyadakı iki zavodda işini dayandırmışdır. Səbəb həmindir - qazın yüksək qiyməti.

Eyni zamanda məlum səbəb üzündən Avstriyanın "Borealis AG" şirkəti və Norveçin "Yara İnternational ASA" kimya şirkəti də istehsalat həcmlərini azaltmışlar.

Avropa İttifaqının energetika məsələləri üzrə rəhbəri Kadri Simson deyir ki, "bu qiymət şokunu qiymətləndirməmək olmaz. Əgər ona nəzarət edilməsə, Avropanın bərpası təhlükə altına alınacaq. Yardım üçün tədbirlər üzərində iş gedir. Bunlar vergilərin azaldılması və dövlət tərəfindən köməkdir".

Eyni zamanda "Bloomberg" ekspertlərə istinadən qeyd edir ki, böhran uzandıqca enerji resurslarına total təklif çatışmazlığı ehtimalı da artır.

### Aİ ölkələri enerji bazarının islahatını təklif edirlər

Nəticədə belə qənaətə gəlmək olur ki, son illər Avropanın yaşadığı görünməmiş enerji böhranı bir neçə amillə, məsələn, pandemiyadan sonra iqtisadiyyatın bərpası və qaza tələbatın artması ilə bağlıdır. Bu yaxınlarda Aİ ölkələri nazirlərinin təcili görüşü keçirilmiş, lakin tərəflər bazardakı enerji böhranının dəf olunması ilə bağlı razılıq əldə edə bilməmişlər.

Xatırladaq ki, hələ 2007-ci ildə Aİ-yə üzv ölkələr elektrik enerjisi və qaz bazarlarının liberallaşdırılması barədə razılığa gəlmişdilər. 2009-cu ilin sentyabrında "Üçüncü enerji paketi" qüvvəyə minmişdi.

Liberallaşdırılmanın məğzi uzunmüddətli kontraktlardan birjalarda satılan enerji daşıyıcılarının qiymətlərinə əsaslanan qısamüddətli müqavilələrə keçiddən ibarətdir.

Bu məsələdə istehsalçıların və qaz bazarında topdansatış qiymətlərin dövlət tərəfindən tənzimlənməsindən imtina, dövlət holdinqlərinin özəlləşdirilməsi və energetikada təbii monopoliyaların bölünməsi, informasiyaya ictimai əlçatanlıq yolu ilə bazarın şəffaflığının təmin olunması nəzərdə tutulurdu. Bundan əlavə, istehlakçılar tədarükçünü seçmək imkanı əldə etmişdilər. İslahatın nəticəsi kimi energetikanın effektivliyi artmış, elektrik enerjisinə qiymətlər aşağı düşmüş, energetika şirkətlərinin investisiya cəlbediciliyi yüksəlmişdi.

Lakin təxminən 10 ildən sonra Avropa İttifaqında enerji böhranı başlandı. Buna isə, bildirildiyi kimi, dünyada qaza tələbatın artması, habelə soyuq qış mövsümündə və 2021-ci ilin anomal yay istilərində enerji daşıyıcılarından yüksək istifadə təsir etdi. Aİ-nin isə bazarı bərpa olunan mənbələrdən alınan öz enerjisi ilə tam təmin etmək imkanı yox idi. Bu dövrdə həmçinin iqtisadiyyatların karantindən sonrakı bərpası başlandı. Vəziyyətə həmçinin Aİ-nin Rusiya qazından asılılığı və "Şimal axını-2" qaz kəmərinin inşası təsirsiz ötüşmədi.

Nəticə kimi ötən ayın əvvəlində birjalarda qiymətlər artdı. Məsələn, 1000 kubmetr qazın qiyməti 1950 dollara qalxdı. Bu, rekord qiymət idi...

Hazırda istilik mövsümü ərəfəsində qaz anbarlarında ehtiyatların az olması müşahidə edilir. Ötən ayın 26-da energetika sahəsində böhran hallarının həlli məqsədilə Aİ ölkələri nazirlərinin təcili görüşü baş tutdu. Görüşdə uzunmüddətli kontraktlara və Aİ-nin enerji bazarının liberallaşdırılmasından əvvəl istehlakçılar üçün qüvvədə olmuş tənzimlənən tariflərə qayıtmaq təklif edilirdi. Aİ-nin Rusiyadan və digər ölkələrdən enerji asılılığının qarşısının alınması və qaz ehtiyatlarının yaradılması üçün birgə proqramın hazırlanması təklif olunurdu. Bundan əlavə, atom energetikasının "yaşıl" energetika kimi tanınmasının mümkünlüyündən və enerji daşıyıcıları üçün borcların qaytarılmasına möhlət verilməsindən danışmışlar. Yekunda Avropa İttifaqı ölkələri bu məsələ ilə bağlı iki düşərgəyə bölünmüşdür. Fransa, İspaniya, Çexiya və Yunanıstan bazarda islahatların aparılmasının lehinə, Almaniya, Avstriya, Lüksemburq, Danimarka, Estoniya, Finlandiya. İrlandiya, Latviya və Niderland əleyhinə çıxış etmişlər. İslahat əleyhdarları bildirirlər ki, böhran müvəqqəti haldır və enerji bazarında radikal dəyişikliklərə ehtiyac yoxdur. Onların fikrincə, şəffaf və rəqabətqabiliyyətli enerji bazarları istehlakçılar üçün təhlükəsizliyin və rəqabətqabiliyyətli qiymətlərin təminatçısıdır.

Buna görə Aİ ölkələri nazirlərinin görüşündə konsensus əldə olunmamış və islahat razılaşdırılmamışdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən İmmunobioloji dərman vasitələrinin satın alınması üzrə elektron satınalma vasitəsilə keçirilən açıq tender prosedurunun qalibləri 2 iddiaçı - "Esam LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir. 20.10.2021-ci ildə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə "Esam LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 217 268.98 (iki yüz on yeddi min iki yüz altmış səkkiz manat 98 qəpik) manat və "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 1 476 475.00 (bir milyon dörd yüz yetmiş altı min dörd yüz yetmiş beş manat 00 qəpik) manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən "Tibb müəssisələri üçün spesifik dərman vasitələri"nin satın alınması üzrə elektron satınalma vasitəsilə keçirilən açıq tender prosedurunun qalibləri 3 iddiaçı - "Esam LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Yurd Pharma" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir. 27.09.2021-ci ildə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə "Esam LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 568 269.71 (beş yüz altmış səkkiz min iki yüz altmış doqquz manat 71 qəpik) manat və "Referans Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 1 192 926.90 (bir milyon yüz doxsan iki min doqquz yüz iyirmi altı manat 90 qəpik) manat və "Yurd Pharma" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında isə 647 280.50 (altı yüz qırx yeddi min iki yüz səksən manat 50 qəpik) məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair dövlət proqramı" üzrə sərfiyyat mallarının satın alınması üzrə elektron satınalma vasitəsilə keçirilən açıq tender prosedurunun qalibləri 4 iddiaçı - "Araş" firması, "Medsol" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Besan" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Paşa-K" firması müəyyən edilmişdir.

27.09.2021-ci ildə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə "Araş" firması arasında 492 685.40 (dörd yüz doxsan iki min altı yüz səksən beş manat 40 qəpik) manat, "Medsol" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 117 066.74 (bir yüz on yeddi min altmış altı manat 74 qəpik) manat, "Besan" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 57 670.38 (əlli yeddi min altı yüz yetmiş manat 38 qəpik) manat və "Paşa-K" firması arasında isə 48 874.42 (qırx səkkiz min səkkiz yüz yetmiş dörd manat 42 qəpik) manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 05.11.2021-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Dünyada koronavirus infeksiyasına yoluxanların sayı artıb

*Əvvəli 1-ci səh.*

Ancaq Rusiya "Rospotrebnadzor" Mərkəzi Elmi-Tədqiqat Epidemiologiya İnstitutunun direktoru Vasili Akimkin koronavirusun "Delta" ştamının alt növü olan "AY.4.2"nin xəstəliyin daha ağır gedişatına səbəb olması barədə heç bir sübutun olmadığını açıqlayıb. O deyib: "Yeni virusun xəstəliyin daha ağır gedişinə, onun anticisimlərin fəaliyyətinə davamlı olmasına dair heç bir sübut yoxdur".

V.Akimkin qeyd edib ki, bunu Böyük Britaniyanın səhiyyə orqanlarının ilkin təhlilinin nəticələrinə dair nəşri də sübut edir. Epidemioloq bildirib: "Onlar müəyyən edilmiş yeni gen variantı ilə "Delta" gen variantının bazası arasında xəstəxanaya yerləşdirmədə və ya ölüm riskində fərqin qəti sübutunu göstərmir".

Qeyd edək ki, "AY.4.2" variantı Böyük Britaniyada aşkar edilib. Britaniyalı alimlər "AY.4.2"-nin "Delta" ştamının 45 alt növündən biri olduğu qənaətinə gəliblər. London Universitet Kolleci Genetik İnstitutunun direktoru Fransua Ballu "AY.4.2"nin "Delta"dan 10-15 faiz daha sürətli yayıla biləcəyini diqqətə çatdırıb. Fransua Ballu açıqlamasına əlavə edib ki, bu fərziyyəni təsdiq etmək üçün çoxlu məlumatlara sahib olmaq lazımdır.

### Mütəxəssislər koronavirusa qarşı peyvənd olunmanın vacibliyini xüsusilə diqqətə çatdırırlar

Bu arada koronavirus infeksiyasından ən çox əziyyət çəkən ölkələrdən biri olan Rusiyada yeni ştamların tapıldığı açıqlanıb. Belə ki, Rusiya "Rospotrebnadzor" Mərkəzi Elmi-Tədqiqat Epidemiologiya İnstitutunun direktoru Vasili Akimkin bildirib ki, adıçəkilən ölkədə bir nəfərdə koronavirusun "lambda" ştamına, üç nəfərdə isə "mü" variantına yoluxma halı aşkar edilib.

Vasili Akimkinin açıqlamasına görə, koronavirusun "Delta" ştamı dünyada olduğu kimi, Rusiyada da dominant olaraq qalır.

Onu da qeyd edək ki, koronavirusun "lambda" və "mü" ştamları ilk dəfə Cənubi Amerikada aşkarlanıb.

Koronavirusa qarşı peyvənd olunmayanların vaksin qəbul edənlərlə müqayisədə bu virusdan ölüm ehtimalı barədə də məlumat verilib. Britaniyanın Milli Statistika Ofisi (ONS) tərəfindən aparılan hesablamaya görə, həmin şəxslərin ölüm ehtimalı tam vaksinasiyadan keçənlərlə müqayisədə 32 dəfə yüksəkdir.

Bu gün hər kəsi maraqlandıran məsələlərdən biri də immunitet yaranması üçün neçə doza vaksin lazım olmasıdır.

Ukraynalı həkim Yevgeniy Komarovski yaşı 65-dən aşağı olan sağlam insana 2 doza vaksinin kifayət etdiyi qənaətindədir. Ancaq yaşlı və müxtəlif xroniki xəstəlikləri olan insanlara 3 doza lazımdır.

Tanınmış həkim vurğulayıb ki, hamı 3 doza vurdursa, daha yaxşıdır. O, qeyd edib ki, vaksin ziyansızdır, az hallarda yanaşı təsirlərə səbəb olur.

Mütəxəssis vaksindən gələn hipotetik təhlükənin koronavirusun təhlükəsindən qat-qat aşağı olduğunu söyləyib.

### "Koronavirusun antibiotiklə müalicəsi mənasızdır"

COVID-19-dan müalicə məqsədilə antibiotiklərdən istifadə məsələsinə mütəxəssis fikri diqqəti çəkib. Belə ki, Rusiya səhiyyə nazirliyinin baş ştatdankənar infeksionisti, professor Vladimir Çulanov koronavirusun antibiotiklərlə müalicəsini tənqid edib.

Rusiyalı professorun bildirdiyinə görə, çox vaxt "sətəlcəm" sözü həkimləri COVID-19 xəstələrinə müalicənin ambulator mərhələsində antibiotiklər yazmağa məcbur edir ki, bunun da heç bir mənası yoxdur.

Mütəxəssis, bu cür dərmanların təyin edilməsinin yalnız sətəlcəm bakterial infeksiyası ilə əlaqəli olduqda əsaslandırıla biləcəyini nəzərə çatdırıb. Bu, daha tez-tez xəstəxana mərhələsində, reanimasiya şöbələrində, xəstə süni tənəffüs cihazında olduqda baş verir. Vladimir Çulanov deyib: "Ancaq "viral pnevmoniya" və ya "pnevmonit" antibiotiklər təyin etmək üçün səbəb deyil".

Rusiyalı professor antibiotiklərin həddindən artıq istifadəsinin virusun antibiotiklərə davamlı ştamların sayının artmasına səbəb olduğunu vurğulayıb. Bu da öz növbəsində xəstəliyin müalicəsini getdikcə çətinləşdirə bilər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Dəniz Nəqliyyat Donanması üçün ehtiyat hissələrinin satın alınması məqsədilə

## *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 noyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1171.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov və bankın kollektivi Mərkəzi Bankın baş direktoru Akşin Vəliyevə atası

**VƏZİR VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TuranBank ASC-nin rəhbərliyi Mərkəzi Bankın baş direktoru Akşin Vəliyevə atası

**VƏZİR VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi DOST Agentliyi sədrinin müavini Ceyhun Cəlilova atası

**RAMİZ CƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Həbib Həsənova dayısı

**MÜBARİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5591
Sifariş 2170
Qiyməti 40 qəpik